**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA İSTEHSAL SAHƏLƏRİNƏ İNVESTİSİYA QOYULUŞU VƏ DAYANIQLI İNKİŞAFIN REGİONAL İQTİSADİ-COĞRAFİ MODELİNİN YARADILMASI

| | |
|---|---|
| İxtisas: | 5401.01 – İqtisadi coğrafiya |
| Elm sahəsi: | Coğrafiya |
| İddiaçı: | **Zaur Tahir oğlu İmrani** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İstitutunda yerinə yetirilmişdir.

Elmi məsləhətçi: coğrafiya elmləri doktoru, professor
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**Şövqisəfa Yusifziya oğlu Göyçayskiy**

coğrafiya elmləri doktoru, professor
**Ağazeynal Alı oğlu Qurbanzadə**

coğrafiya elmləri doktoru, dosent
**Məhəmməd Abdu oğlu Abduyev**

coğrafiya elmləri doktoru, dosent
**Tatyana İvanovna Zabortseva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BED 2.51 Birdəfəlik dissertasiya şurası

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri: coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
« 16 » 04 20 25

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrümüzdə dünya təsərrüfatı sistemində baş verən struktur və təşkilati dəyişikliklər, eləcə də qlobal iqtisadi böhranlarla müşayiət edilən qeyri-müəyyən dinamik proseslər ölkələrin dayanıqlı sosial-iqtisadi və ekoloji inkişafının təmin edilməsində bir sıra mürəkkəb və çoxşaxəli problemlər yaratmışdır. Bu problemlərin effektiv həlli yollarının axtarışında isə əsas və aparıcı vasitə kimi istehsal sahələrinin səmərəli iş fəaliyyətinin yüksəldilməsi durur. Çünki məhz istehsal sahələri təbii ehtiyatlardan maddi nemətlər yaratmaqla insanların mənəvi tələbatlarını ödəyir. Bu baxımdan, tədqiqat işində istehsalın aparıcı sahələri olan sənaye, aqrar sənaye və turizm sənayesinin ərazi təşkili, onlara ayrılan investisiyalar, eləcə də dayanıqlı inkişafda istehsal sahələrinin rolu tədqiq edilir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsi ilə əlaqədar ölkədə baş verən ictimai-siyasi hadisələr onun təsərrüfat strukturunda, iqtisadiyyatında və sosial-demoqrafik vəziyyətində bir sıra mühüm dəyişikliklərə gətirib çıxardı. Bu dəyişikliklər regional iqtisadi sistemlərin fəaliyyətinə mənfi təsir göstərdi, ənənəvi iqtisadi münasibətlərin pozulması ilə istehsal sahələrinin fəaliyyətində yaranan fasilələr isə ölkənin ciddi problemlərlə üzləşməsinə səbəb oldu. Belə ki, bəzi istehsal sahələri fəaliyyətini dayandırdı, iqtisadi itkilər, iş yerlərinin azalması, sosial vəziyyətin pisləşməsi, milli valyutanın dəyərsizləşməsi baş verdi ki, bunun da məntiqi nəticəsi kimi daxili mənbələr hesabına dayanıqlı inkişafa keçid zərurəti tələb olundu.

Qısa müddət ərzində, yəni, 20 sentyabr 1994-cü ildə neftin hasilatı və nəqli, eləcə də münbit investisiya mühitinin yaradılması istiqamətində səmərəliyə nail olmaq üçün "Əsrin müqaviləsi" imzalandı. Nəticədə əldə olunan gəlirlər isə bir sıra beynəlxalq əhəmiyyətli layihələrin: Bakı-Tbilisi-Ceyhan neft kəməri (2006-cı il), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (2007-ci il), Çıraq neft layihəsi (2010-cu il), Cənub qaz dəhlizi (2014-cü il) və s. icrasına təkan verdi, ölkədə yeni istehsal sahələrinin yaradılmasına və inkişaf etdirilməsinə

zəmin yaratdı[1]. İstehsal sahələri isə bu üstünlüklərdən yararlanmaqla dayanıqlı inkişafın əsas aparıcı qüvvəsi kimi regionların iqtisadi-coğrafi paradiqması qismində çıxış etdi. Dayanıqlı iqtisadi inkişaf istehsal münasibətlərinin dünya iqtisadiyyatına inteqrasiyası və xarici ticarət əlaqələrinin genişləndirilməsi fonunda təkamül prosesini gücləndirdi. Ölkədə baş verən sosial-iqtisadi dəyişikliklər regional siyasi münasibətlərin strukturunda stratateji nizamı əks etdirdi.

Yeni mərhələdə istehsal sahələrinin dayanıqlı inkişafını təmin etmək üçün bazar prinsipləri əsasında idarəetmə mexanizmlərinin tətbiqi tələb olunur. Çünki istehsalın səmərəliliyi innovativ vasitələrlə təchiz olunmuş müasir idarəetmə formalarının tətbiqinə əsaslanır. Yerli istehsal müəssisələrinin praktiki vərdişlərə malik olmasına baxmayaraq, onlara innovativ modernlərin tətbiqini çox aktualdır. Belə yanaşma metodu istehsal sahələrinin ərazi təşkili və investisiya resurs mühitinin yaradılması çərçivəsində dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modeli ilə bağlıdı. Yəni, milli iqtisadiyyatın əsasını təşkil edən istehsal sahələrinin dayanıqlı və sabit inkişafı regional siyasət və iqtisadi-coğrafi sinergetik paralellərin birgə işlənməsi ilə mümkündü. Beləliklə, istehsal prosesi regional siyasəti dəstəkləyən, rəqabət qabiliyyətli innovasiyalar yaradan və onları tətbiq edən çevik bir sistem olub, sosial-iqtisadi inkişafı müəyyən etməlidir. Lakin Azərbaycan Respublikasının iqtisadi rayonları arasında hələ də mövcud olan qeyri-uyğunluq regional dayanıqlı inkişafa müəyyən dərəcədə mane olur. Bu ölkə daxilində sosial-iqtisadi maraqlara uyğun investisiyaların cəlb olunması, rayonların iqtisadi-coğrafi baxımdan inkişaf səviyyəsinin qiymətləndirilməsi yeni yanaşmaların tətbiqini tələb edir. Yəni, sosial-iqtisadi inkişafın əsas meyarlarının müəyyən olunması, istehsal sahələrinin mövcud vəziyyətinin klasterləşdirilməsi, müxtəlif dayanıqlı inkişaf modellərinin tətbiqi, regional strateji istiqamətlərin təsnifatlaşdırılması və digər dəyərləndirmələr əsasında konseptual nəticələrin çıxarılması tədqiqat işinin əsasını təşkil etməklə, öz elmi aktuallığı ilə fərqlənir.

---

[1] Şaban, İ. Azəri-Çıraq-Günəşli, Əsrin müqaviləsi, 1994-2022: Faktlar, sənədlər və rəqəmlər toplusu / İ. Şaban. – Bakı, TEAS Press, – 2023. – 236 s.

Tədqiqat işinin işlənmə dərəcəsindən görünür ki, bu sahənin elmi və nəzəri-metodiki əsasları konseptual məntiqi meyarlar əsasında olduqca geniş paradiqmadan öyrənilib. Dayanıqlı inkişaf konsepsiyasını: U.K.Ələkbərov, Ş.Y.Göyçaylı, A.A.Qurbanzadə, Ç.N.İsmayılov, Z.N.Eminov, N.Ə.Paşayev, Z.T.İmrani, A.Q.Abdullayev, M.P.Todaro, E.Holden, J.Elkinqton, R.Jovovic, M.Munasinqhe, G.B.Asheim, Y.İ.Vaysman, L.N.Rodionova, T.V.Uskova, E.S.Qruznev, E.V.Rassadina, N.A.İskakov, O.S.Şimova, L.Q.Melnik, N.G.Pustoxina, O.V.Mixalev və d.; regional siyasətdə investisiya qoyuluşunu: S.Z.İsayev, H.B.Allahverdiyev, N.S.Məcidov, G.A.Əzizova, S.H.Rizayeva, T.Hüseynov, Z.T.İmrani, L.J.Gitman, U.F.Şarp, D.O.Ledenyov, N.T.Laopodis, C.Hamelmann, M.Baker, R.Banerjee, E.Saak, M.İ.Lisitsa, L.L.İqonina, B.A.Koltınyuk, L.İ.Yuzvoviç, V.M.Askinadzi və d.; yerli və xarici alimlər öz tədqiqat işlərində geniş işıqlandımış, bir sıra inkişaf modelləri vermişdilər. Azərbaycanda istehsal sahələrinin ərazi təşkili, regional fərqlər və istehsalın strukturunun diversifikasiyası sahəsində: Ə.M.Hacızadə, A.A.Nadirov, Z.A.Səmədzadə, Ə.X.Nuriyev, T.G.Həsənov, M.X.Məmmədov, F.A.Fərəcov, S.K.Hüseynov, M.C.Hüseynov, Z.T.İmrani və d. alimlər tərəfindən elmi-tədqiqat işləri aparılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın işinin obyekti Azərbaycanın istehsal sahələri və onların dayanıqlığının təmin edilməsi, predmeti isə istehsala ayrılan investisiyaların iqtisadi-coğrafi baxımdan əsaslandırılması, dayanıqlı inkişaf modelinin yaradılması, ərazi-məkan klasterlərinin qiymətləndirilməsi və innovasiya yönümlü istehsalın tədqiqidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi inkişafın dayanıqlığını təmin etmək üçün istehsal sahələrinin inteqral şəkildə qiymətləndirilməsinin aparılmasıdır. Dayanıqlı inkişafın əsas xüsusiyyəti kimi iqtisadi səmərəlilik, sosial bərabərlik, innovativ fəallıq, investisiyalarda cəlbedicilik və digər istiqamətlərdə yüksək əhəmiyyətlilik dərəcəsi nəzərə alınmaqla aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- dayanıqlı inkişaf modeli, eləcə də dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modelini yaradılması;

- investisiya qoyuluşunun mahiyyətini əsaslandırmaq və onun üstün cəhətlərini nəzəri-metodiki baxımdan müəyyən edilməsi;
- dünya təcrübəsinə uyğun istehsal sahələrinə innovativ modern yanaşmanın əsaslandırılması;
- istehsal sahələrinin dünya iqtisadiyyatına inteqrasiyasını və xarici ticarət əlaqələrinin dinamikasının müəyyən edilməsi;
- sənaye istehsalının regional fərqlərini və inkişaf istiqamətlərinin təyin eedilməsi;
- aqrar sənaye istehsalının potensial imkanlarının optimallaşdırılması yollarının üzə çıxarılması;
- turizm sənayesinin cəlbediciliyini və inkişaf tempini iqtisadi-coğrafi paradiqmadan təhlili;
- istehsal sahələrinin dayanıqlığını Klaster və Ərazi İnkişaf İndeksinin köməkliyi ilə hesablanması;
- regional strategiyanın inkişaf aspektlərinin SWOT təhlilinin aparılması;
- Xəzər dənizinin sahilboyu regionalarının ərazi-struktur və iqtisadi-coğrafi sinergetik paralellərinin tədqiqi;
- dayanıqlı istehsal sahələrinin formalaşdırılmasında Strateji Yol Xəritəsinin və dövlət proqramlarının rolunun təhlili.

**Tədqiqat informasiya bazası və metodları.** Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hesabatları, Azərbaycan Dövlət Statistika Komitəsinin nəşr etdirdiyi məcmuələr, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Coğrafiya və İqtisadiyyat institutlarının fond materialları, Azərbaycan Respublikasının mövcud qanunvericilik bazası, bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərləri və metodiki göstərişləri, eləcə də müəllifin uzun illər ərzində apardığı elmi-tədqiqat işlərinin nəticələri təşkil edir.

Mövcud coğrafi tədqiqatlarda olduğu kimi işin yerinə yetirilməsində tarixi-coğrafi yanaşma, sistemli-struktur, riyazi-statistika, rayonlaşdırılma, məntiqi-qruplaşdırılma, sinergetik effekt, klaster, SWOT, çöl müşahidələri və s. müasir funksional tədqiqat metodlarından istifadə edilmişdir. Seçilmiş metodların köməkliyi ilə qarşıya qoyulan vəzifələrin həllinə nail olunmuş, Coğrafi İnformasiya Sistemləri (CİS) vasitəsilə unikal xəritələr tərtib edilmişdir.

Tarixi-coğrafi yanaşma xronoloji dövrləri iqtisadi-coğrafi baxımdan təhlil etməyə və əraziləri əlaqələndirməyə köməklik göstərmiş; sistemli-strukturlu yanaşma istehsal sahələrini kompeks şəkildə tədqiqata cəlb etmiş; riyazi-statistik müqayisə məlumatların sistemləşdirilməsinə, onların emalına və praktiki nəticələrin çıxarılmasına yardımçı olmuş; rayonlaşdırılma problemin elmi əsaslarla təhlil edilməsinə imkan yaratmış; məntiqi-qruplaşdırma istehsal sahələrinin seçimində bir-birinə yaxın məlumatları xarakterizə etmiş və qruplaşdırmaya köməklik göstərmiş; sinergetik effekt idarəetmə strategiyası və istehsal məhsullarının inteqrasiya uyğunluğunda öz əksini tapmış; klaster yanaşması istehsal sahələrinin müqayisəli keyfiyyət göstəricilərini təyin etmiş; SWOT təhlil istehsal sahələrinin güclü və zəif tərəfləri öyrənilmiş, təhlükələr və imkanlar ilə bağlı görüləcək işlər açıqlanmışdır. Bunlarla yanaşı, tədqiqat işində "Dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modeli" və "İstehsal sahələrində investisiya mühitinin formalaşması modeli" tərəfimdən işlənmiş və tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**.

1. Dayanıqlı inkişaf və istehsal sahələrinə investisiya qoyuluşu modellərinin konstruktiv əsasları.
2. Azərbaycanda istehsal sahələrinin dayanıqlı ərazi strukturu və regional fərqlər.
3. Azərbaycanda investisiya mühitinin formalaşdırılması və istehsal sahələrinə investisiya qoyuluşunun cəlbediciliyi.
4. Azərbaycanda istehsal sahələrinə modern innovativ yanaşma və dünya iqtisadiyyatına inteqrasiyasının dayanıqlı aspektləri.
5. Azərbaycanda regional dayanıqlı inkişafın təminatında Strateji Yol Xəritəsinin və dövlət proqramlarının rolu.

**Tədqiqatın elmi yeniliyi:**

- dayanıqlı inkişaf və dayanıqlı inkişafın regional iqtisadi-coğrafi funksional modelləri tədqiq edilərək ilk dəfə yeni konstruktiv modellər təklif olunmuşdur;
- ilk dəfə istehsal sahələrində investisiya mühitinin formalaşdırılması modelinin əsas prinsipləri dayanıqlı inkişaf kontekstində təhlil edilərək təbii və sosial-iqtisadi potensialdan istifadə yollarının strategiyası hazırlanmışdır;

- regionların sosial-iqtisadi inkişafında baş verən dəyişikliklər anamorfoz xəritələr əsasında müqayisə edilərək regional qeyri-bərabər inkişaf və meyillər sübuta yetirilmişdir;
- istehsalın ərazi təşkilinin dayanıqlı iqtisadi-coğrafi səmərəsi aqrar sənayenin sinergetik effekt kontekstində təhlil edilmiş, aqrar sənayedə sistemli-struktur yanaşmaların dayanıqsız olduğu və ərzaq təhlükəsizliyi probleminin yarana biləcəyi təsdiq edilmişdir;
- funksional diversifikasiya fonunda turizm sənayesinin rəqabət mühiti və onun resurs potensialından istifadəsi məntiqi yanaşma ilə araşdırılmış, son illər turizm sənayesində geriləmələrin baş verdiyi, ölkəyə gələn turistlərin bir regiondan asılı olduğu müəyyən olunmuşdur;
- Xəzər dənizinin sahilboyu regionu kompleks sosial-iqtisadi təhlil əsasında qruplaşdırılmış və ölkənin digər regionlarından daha yüksək səviyyədə inkişaf etməsi müəyyən edilmiş, daxili regional fərqlərin də kəskin hal alması təsdiqlənmişdir;
- mühüm amillərdən biri kimi istehsal sahələrinin inteqrasiyası müsbət dinamika ilə inkişaf etdirilsə də, istehsal sahələrində innovativ yanaşma trendinin mənfi hal aldığı aşkar edilmişdir;
- xarici ticarət siyasəti dayanıqlı iqtisadi artıma səbəb olmuş, lakin ixrac məhsullarının əsasını xammal ehtiyatları təşkil etdiyi üçün istehsalda innovativ inkişafa üstünlüyük verilməsi sübuta yetirilmişdir;
- istehsal sahələrinin strukturunda investisiya qoyuluşunun kəskin azalması ciddi dəyişikliklərə gətirib çıxaracağının qiymətləndirilməsi aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. İstehsal sahələrinin dayanıqlı və innovativ inkişafı, dövlət-investisiya siyasəti, investisiya mühitinin formalaşması və cəlbediciliyi, regional siyasət və regionların sosial-iqtisadi inkişafının qiymətləndirilməsi və s. məsələlər tədqiqatın elmi-nəzəri hissəsini təşkil etməklə, tədqiqat prosesində alınan nəticələr istehsal sahələrinin dayanıqlı inkişafı üçün investisiya qoyuluşu ilə bağlı biliklər sisteminin inkişaf etdirilməsində tətbiqi-nəzəri əhəmiyyət kəsb edə bilər.

Tədqiqatın praktiki əhəmiyyəti, istehsal sahələrinə və regionlara investisiya qoyuluşunun müsbət təsirlərinin stimullaşdırılmasına

yönəldilmiş investisiya siyasətinin həyata keçirilməsi çərçivəsində elmi-praktiki tövsiyələrin verilməsində, eləcə də işdə təqdim olunan materiallardan müxtəlif səviyyələrdə dayanıqlı inkişafa keçid üzrə dövlət proqramlarının və layihələrin işlənib hazırlanmasında, həmçinin təhsil prosesində əyani vəsait kimi istifadə edilməsi mümkündür.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin istiqamətinə uyğun olaraq, aşağıdakı elmi-praktiki konfranslarda və seminarlarda məruzələr edilmişdir: 8$^{th}$ Bacsa ınternatıonal conference "Climate changes and chemicals – the new sericulture challenges" (Sheki, 2017), "Coğrafiyanın müasir problemləri" respublika elmi konfransı (Sumqayıt, 2019), "Регіон – 2020: суспільно-географічні аспекти" матеріали міжнародної науково-практичної конференції (Харків, 2020), "Регіон – 2020: стратегія оптимального розвитку" матеріали міжнародної науково-практичної конференції (Харків, 2020), The XIII İnternational Scientific Symposium "Scıence and educatıon: preservıng the past, creatıng the future" (Kars, 2021), The XVII Internatıonal scıentıfıc symposıum "Karabag: way to vıctory" (Göteborg, 2021), "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" onlayn konfrans (Bakı, 2021), "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" V Beynəlxalq elmi-praktik konfransı (Bakı, 2021), 7th International EMI Entrepreneurship & Social Sciences Congress (Tashkent, 2022), "Coğrafiyanın müasir problemləri: elm və təhsilin inteqrasiyası" Beynəlxalq elmi-praktiki konfrans (Bakı, 2022), "Современная Евразия: общественно-географический анализ" Международная научная конференция (Улан-Удэ, 2023), 10$^{th}$ "Халықаралық Түркі әлемі зерттеулері" симпозиумы (Алматы, 2023).

Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "CİS texnologiyasından istifadə etməklə cəbhə zonasında yaşayan əhalinin vurulma təhlükəsi dərəcəsinin və onun sosial-iqtisadi vəziyyətə təsirinin qiymətləndirilməsi" adlı layihəsində (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/02/2-M-14) tətbiq olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu.** Dissertasiya işi giriş, 5 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 289 səhifədir. İş 11 xəritə, 31 qrafik, 33 diaqram, 1 şəkil, 14 cədvəl, 365 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8 səhifə, I fəsil – 38 səhifə, II fəsil – 66 səhifə, III fəsil – 57 səhifə, IV fəsil – 42 səhifə, V fəsil – 36 səhifə, nəticə – 5 səhifə, ədəbiyyat siyahısı – 34 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 400800 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilmişdir.

Dissertasiya işinin birinci fəsli "**Dayanıqlı inkişaf və investisiya siyasətinin nəzəri-metodiki əsasları**"na həsr edilmişdir. Bu fəsildə iqtisadi-coğrafi tədqiqatlarda "dayanıqlı inkişaf" konsepsiyasının nəzəri-metodiki əsasları, regional siyasətdə investisiya qoyuluşunun mahiyyəti və asılılıq konsepsiyasına elmi-metodiki yanaşma üsulları təhlil edilmiş, fundamental əhəmiyyət kəsb edən məntiqi meyarlar işlənilib hazırlanmışdır.

"Dayanıqlı inkişaf" termini XIX əsrdə Alman meşəçiləri tərəfindən "meşə ekosisteminin itkisiz çoxaldılması" ideyası kimi irəli sürülmüşdür. Bu termin, təbiətdən istifadə zamanı ehtiyatların istismarının qeyri-müəyyən müddətə qədər davam etdirilə bilməsi anlayışına gəlmişdir. İngilis dilindən tərcümədə "sustainable development" kimi səslənən bu termin elmi ədəbiyyatlarda ilk dəfə XX əsrin ortalarından başlayaraq təbiətin idarə edilməsində istifadə edilmişdir[2]. Daha geniş mənada isə dayanıqlı inkişaf termini 1972-ci ildə İsveçin Stolkholm şəhərində BMT-nin "Ətraf mühit" üzrə

---

[2] Устойчивое развитие: Новые вызовы / Редактор В.И. Данилова-Данильяна, Н.А. Пискуловой. – Москва: Аспект Пресс, – 2015. – 336 с.

keçirilmiş beynəlxalq konfransında işlədilmişdir. Komissiya tərəfindən "dayanıqlı inkişaf" mövcud ehtiyatlara xələl gətirmədən həm müasir dövrün, həm də gələcək nəsillərin tələbatını ödəyə biləcək bir inkişaf kimi qiymətləndirilmişdir[3]. Bu konfransda dayanıqlı inkişaf anlayışına müvafiq proqramların hazırlanması təklif edilmiş, bununla da termindən geniş miqyasda istifadə edilməyə başlanılmışdır. 1987-ci ildə "Brundtland Komissiyası" Dayanıqlı İnkişaf Konsepsiyasının əsasını qoymuşdur.

"Ətraf Mühit" üzrə beynəlxalq konfransında təsbit olunmuş prinsiplər əsasında 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən beynəlxalq konfransda ətraf mühitin mühafizəsi və dayanıqlı inkişafın 27 prinsipi elan edilmiş, Rio-de-Janeyro bəyannaməsi: bioloji müxtəliflik və iqlim dəyişikliyi üzrə konvensiya, meşələrin idarə olunması, mühafizəsi və dayanıqlı inkişafı üzrə qlobal konsensus qəbul olunmuşdur[4]. Bir müddət sonra isə 20-22 iyun 2012-ci ildə "Rio+20: Dayanıqlı inkişaf" beynəlxalq konfransında ilk öncə müəyyən edilmiş prinsiplər yenidən nəzərdən keçirilmiş və bu prinsiplərə əsaslanaraq dünya quruculuğunda əldə edilən irəliləyişlərin qiymətləndirilməsinə cəhd edilmişdir. Rio+20 beynəlxalq konfransının şüarı isə "Həyat qabiliyyətli insanların planeti: seçdiyimiz gələcək" olmuşdur[5]. Bu konfransdan sonra dünya üzrə dayanıqlı inkişafa maraq getdikcə artmağa başlamışdır. Azərbaycan da dayanıqlı inkişaf prinsiplərini əsas tutaraq 25 sentyabr 2015-ci ildə "Dayanıqlı inkişaf" gündəliyini qəbul etmiş, dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini nəzərdən keçirməklə 17 məqsədi, 88 hədəfi və 119 göstərici prioritet istiqamət kimi seçmişdir[6]. Buradan görmək olur ki, dayanıqlı inkişaf konsepsiyasının

---

[3] Our Common Future / Report of the International Commission on Environment and Development. – New York: UN, – 1987. – 374 p.

[4] Концепция устойчивого развития и местная повестка дня на XXI век / редакторы Д.А. Голубева, Н.Д. Сорокина. – Санкт-Петербург: Союз художников, – 2003. – 480 с.

[5] Морковкин, Д.Е. Социально-экономические аспекты устойчивого развития экономики территорий // – Москва: Вестник Московского университета имени С.Ю.Витте. Экономика и управление – 2014. Серия 1, 1(7), – с. 4-10.

[6] United Nations and Government Sustainable Development Cooperation Framework 2021-2025. – Baku: UNSDCF, – 2021. – 96 p.

mahiyyəti hazırda dünyanın müxtəlif regionlarında yaşayan insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına və gələcək nəsillər üçün bərabər hüquqlu həyat fəaliyyətinin qorunub saxlanılmasına yönəldilmişdir.

Müasir dövrdə universallığı ilə seçilən "dayanıqlı inkişaf" anlayışı müxtəlif aspektlərdə: dayanıqlı sosial-iqtisadi inkişaf, dayanıqlı ekoloji inkişaf və onun idarəedilməsi, istehsal fəaliyyətinin dayanıqlığı və s. ilə xarakterizə edilir. Elmi ədəbiyyatlarda isə dayanıqlı inkişaf terminindən müxtəlif məqsədlər üçün istifadə olunur. Məsələn, N.A.İskakov L.N.Rodionova "dayanıqlı" kateqoriyasını fənlərarası xarakter daşıdığını, elmin müxtəlif sahələrində və elmi tədqiqatlarda istifadə olunduğunu, zaman keçdikcə isə mənasını dəyişə biləcəyini qeyd edirlər. Yəni, "dayanıqlı" termini "davamlı" terminini əmələ gətirmiş, "möhkəm təməl" və ya "başlanğıc" mənasını daşıdığını söyləyir[7]. J.Elkinqton dayanıqlı inkişaf konsepsiyasını öz təkamülündə dayanıqlığın üç ölçüsünə (ekoloji, sosial və iqtisadi) görə əsaslandırır. Bu da inkişaf prosesində: 1) ekoloji dayanıqlıq – iqtisadi fəaliyyət və həyat keyfiyyəti üçün ətraf mühitin qorunması; 2) sosial dayanıqlıq – cəmiyyətin və mədəni dəyərlərin qorunub saxlanılması; 3) iqtisadi dayanıqlıq – yüksək gəlir səviyyəsi üçün sosial və insan kapitalına nail olmağı tələb edir[8]. O.S.Şimovaya görə dayanıqlı inkişafın iki istiqaməti mövcuddur. Birinci istiqamət, dayanıqlı inkişaf göstəricilərinin statistik sabitliyə gətirilməsi, yəni, statistik tarazlığa nail olunması. İkinci istiqamət, mürəkkəb sosial-iqtisadi sistemdə baş verən hadisələr fonunda inkişaf dinamikasının "davamlı inkişaf"a keçid alması, yəni, inkişaf dinamikasında zaman və məkanda baş verən hadisələrin dəyişməsi ilə statistik göstəricilərin yüksəlməsi kimi qəbul olunur[9]. T.V.Uskova dayanıqlı inkişafı sosial-iqtisadi sistemin

---

[7] Родионова, В.М. Финансовая устойчивость предприятия в условиях инфляции / В.М. Родионова, М.Д. Федотова. – Москва: Финансы и статистика, – 1995. – 320 с.

[8] Elkington, J. Towards the Sustainable Corporation: Win-Win-Win Business Strategies for Sustainable Development // – California: California Management Review, – 2015. 36(2), – p. 90-100.

[9] Шимова, О.С. Устойчивое развитие / О.С. Шимова. – Минск: БГЭУ, – 2017. – с. 394.s

çox mübahisəli və həll olunmamış problem kimi qəbul edir. Fəlsəfi anlayışda dayanıqlı inkişaf sabit bir vəziyyətdə qalan, dəyişməyən, lakin sosial-iqtisadi sistemin dinamik tərkib hissəsi olduğunu bildirir[10]. Ş.Y.Göyçaylı təbii şəraiti və təbii ehtiyatları dayanıqlı inkişafın dinamikliyi kimi qəbul edir, regional səviyyədə iqtisadi inkişafa və ekoloji duruma inteqrasiyalı yanaşmanı üstün tutur. Bu da dayanıqlığın əsas göstəricilərindən biri olmaqla, ekoloji-iqtisadi sistemin vacib komponenti kimi funksional təminatı yaradır[11]. Ç.N.İsmayılov dayanıqlı inkişafı sosial-iqtisadi sistemlərin transformasiyası, cəmiyyətdə və ətraf mühitdə müsbət yönümlü dəyişikliklərin baş verməsi, eləcə də beynəlxalq səviyyədə dövlətlərarası yeni idarəetmə formalarının mövcudluğu ilə əlaqələndirir[12]. A.A.Qurbanzadə dayanıqlı inkişaf kodlarına təbii zonaları, landşaft qurşaqlarını və ərazi-istehsal sahələrini aid edir, onların məkan-zaman əlaqələrinin inteqrativ xassələrə malik olduğunu bildirir[13]. Z.T.İmrani dayanıqlı inkişaf konsepsiyasını, onun regional aspektlərini və güclü tərəflərini tədqiq etmiş, ərazi-istehsal komplekslərinin dayanıqlılığına təsir edən sənaye və aqrar sənayenin, həmçinin son illər daha sürətlə inkişaf etdirilən turizm sənayesinin inkişaf tendensiyalarını araşdırmış və regional inkişaf strategiyasını dayanıqlı inkişaf konsepsiyasının bir hissəsi olduğu qənaətinə gəlmişdir[14].

Yuxarıda deyilənlərə əsasən belə bir nəticə çıxarmaq olar ki, dayanıqlı inkişaf konsepsiyası iqtisadi, sosial, ekoloji, texnoloji,

---

[10] Ускова, Т.В. Управление устойчивым развитием региона / Т.В. Ускова. – Вологда: ИСЭРТ РАН, – 2009. – 355 с.

[11] Göyçaylı, Ş.Y. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsaslar / Ş.Y. Göyçaylı, T. İsmayılov. – Bakı: MBM, – 2009. – 232 s.

[12] Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli / Ç.N. İsmayılov [və b.]. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 252 s.

[13] Qurbanzadə, A.A. Analitik coğrafiya / A.A. Qurbanzadə. – Bakı: Kooperasiya, – 2018. – 168 s.

[14] Имрани, З.Т., Мусаева, М.Р. Социально-экономические аспекты концепции устойчивого развития в Азербайджанской Республике // – Дагестан: Юг России: экология, развитие. – 2016. Том 11, №2, – с. 42-49. doi: 10.18470/1992-1098-2016-2-42-49

bioloji və s. sahələrin göstəricilərini əks etdirməklə, onların inkişafına təsir edə biləcək daxili və xarici təsirlərə qarşı dözümlülüyü təmin etməyə çalışan bir sistemdir. Bu sistem, əvvəlcədən müəyyən edilmiş və inkişafı xarakterizə edən göstəricilərin aşağı düşməməsi yolu ilə dayanıqlı artımın təmin edilməsini tələb edir. Dayanıqlı inkişafın təminatçısına və ona təsir edən amillərə aşağıdakılar aiddir (qrafik 1).



Qeyd: qrafik Z.T.İmrani tərəfindən tərtib edilmişdir.

Qrafik 1. Dayanıqlı inkişafın təminatçısı və ona təsir edən amillər

Müasir dünyada dayanıqlı inkişafın əsas təminatçısı qismində dövlətin apardığı regional inkişaf siyasəti durur. Bu siyasət ölkə regionlarının sosial-iqtisadi inkişafının tərkib hissə olub, istehsal sahələrinin yaradılması, yeni iş yerlərinin açılması, məşğulluğun

təminatı, vergi güzəştlərinin tətbiqi, investisiya mühitinin sadələşdirilməsi, gəlirlərin artırılması və s. ilə əlaqəlidir.

"İnvestisiya" müxtəlif fəaliyyət növlərinin əlaqələndirilməsi ilə müəyyən vaxt ərzində investorun gəlirlərinin artırılması məqsədini güdür. İnvestor əmanətlərini investisiya etməklə sərvətini və gələcək istehlak imkanlarını artırmağa çalışır[15]. Çünki "*investisiya daha çox iqtisadi vəsaitlərin köməkliyi ilə yaradılan istehsal resursu (kapital ehtiyatının yaradılması) hesab edilir*"[16]. Həmçinin "*investisiyaya gələcəkdə gəlir əldə etmək və ya müəyyən sosial problemləri həll etmək üçün məqsədli kapital qoyuluşu da adlandırırlar*"[17].

Apardığımız araşdırmalar və əldə etdiyimiz nəticələr əsasında deyə bilərik ki, dövlətin regional siyasətinin həyata keçirilməsi üçün ilk növbədə investisiyaların mahiyyəti əsaslandırılmalı, əlverişli regional investisiya mühiti (yeni yanaşmalar əsasında) yaradılmalıdır. Bu zaman, investisiyalardan istifadənin səmərəliliyi qiymətləndirilməli və davamlı olaraq təkmilləşdirilmiş nəzəri-metodiki yanaşmalardan istifadə olunmalıdır. Belə yanaşmalar, regionlara investisiyaların cəlb edilməsi yolu ilə iqtisadi inkişaf səviyyəsinin dayanıqlığına, istehsal sahələrinə yalnız kapital qoyuluşu və innovativ texnologiyaların cəlb edilməsi ilə deyil, həm də istehsalın idarə edilməsinə və mütərəqqi üsulların tətbiqinə köməklik göstərə bilər.

Dissertasiya işinin ikinci fəsli "**Azərbaycanda istehsal sahələrinin dayanıqlı ərazi təşkilində investisiya resurs strategiyasının cəlbedici coğrafi mühiti**"nə həsr edilmişdir. Bu fəsildə istehsal sahələrinin ərazi strukturuna investisiya qoyuluşunun konstruktiv əsasları təhlil edilir, sənaye istehsalının coğrafiyası və investisiya resurslarının tətbiqi variantları verilir, aqrar sənaye istehsalının ərazi təşkilinin optimal variantları və investisiya

[15] Гитман, Л.Дж. Основы инвестирования / Л.Дж. Гитман, М.Д. Джонк. – Москва: Дело, – 1997. – 991 с.

[16] Колтынюк, Б.А. Инвестиционное проектирование объектов социально-культурной сферы / Б.А. Колтынюк. – Санкт-Петербург: Михайлова В.А., – 2000. – с. 11.

[17] Инвестиции / Под ред. Л.И. Юзвович. – Екатеринбург: Уралский университет, – 2016. – с. 57.

cəlbediciliyinin əsas istiqamətləri açıqlanır, turizm sənayesinin ərazi fərqləri və investisiya asılılığının iqtisadi-coğrafi təhlili aparılır.

Azərbaycan dövlət müstəqilliyi (18 oktyabr 1991-ci il) əldə etdiyi ildən müasir dövrə qədər ölkədə investisiya mühitini formalaşdırmaqla daima onun təmərküzləşməsi prosesini həyata keçirilir. Belə ki, investisiyaların fəaliyyət prosesini tənzimləmək, xarici investorları ölkə iqtisadiyyatına cəlb etmək, beynəlxalq iqtisadi inteqrasiyaya təminat vermək məqsədilə 1992-ci ildə "Xarici investisiyanın qorunması haqqında"[18] və 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" qanunlar qəbul edilmişdir. Lakin bu qanunlar 2022-ci ildə ləğv edilərək, onların bazası əsasında yeni "İnvestisiya fəaliyyəti haqqında" Qanun qəbul edilmişdir[19]. Bu qanun investisiya mühitinin tənzimlənməsi, dövlət və yerli özəl şirkətlərlə yanaşı, xarici investorların da ölkəyə cəlb olunmasına əlverişli şərait yaratmışdır. Belə hal öz növbəsində, istehsal sahələrinin dayanıqlı inkişafına və bir çox sahələrdə prioritetlərin müəyyən olunmasına imkan vermişdir.

Müstəqilliyin ilk illəri ilə müqayisədə, hazırda (1995-2021-ci illərdə) ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 61,9 dəfə artmışdır. Bu artım demək olar ki, bütün sahələri əhatə etsə də, daxili və xarici investisiya qoyuluşunda müəyyən dəyişikliklər baş vermişdir. İlk illər, yəni 1995-2007-ci illər aralığında daxili investisiyaların həcmi xarici investisiyalar ilə müqayisədə xeyli aşağı olmuşdur. Buna səbəb, təbii ehtiyatlarının hasilatı və yeni istehsal sahələrinin yaradılması üçün xarici investorların ölkəyə cəlb olunması olmuşdur. Lakin 2008-2014-cü illərdə daxili investisiyaların həcmi bir qədər artmış və 2014-cü ildə onların payı ümumi investisiyalarda 58,1%-nə çatdırılmışdır. Daha sonra daxili və xarici investisiyalar arasında qarşılıqlı tendensiya müşahidə edilmişdir. Amma tədqiq edilən illər ərzində ən böyük fərq 2016-ci ildə müşahidə edilmiş və həmin il xarici investisiyalar ümumi investisiyaların 71,4%-ni (16,2 mlrd manat) təşkil etmişdir. 2021-ci ildə isə Azərbaycan

[18] Xarici investisiyanın qorunması haqqında Qanun // 15 yanvar 1992-ci ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 1992. – 8 s.

[19] İnvestisiya fəaliyyəti haqqında Qanun // 13 yanvar 1995-ci ildə qəbul edilmişdir (22 iyun 2022-ci il tarixdə olan dəyişiklik və əlaqələr). – Bakı: Qanun, – 2022. – 13 s.

iqtisadiyyatına 25,3 mlrd manat investisiya qoyulmuşdur ki, onun da 49,6%-i daxili, 50,4%-i xarici investisiyaların payına düşmüşdür. Xarici ölkələr arasında Böyük Krallıq 31,8%, İsveçrə 11,4%, ABŞ 10,9%, Türkiyə 9,0%, Yaponiya 8,7% daha qabaqcıl yerləri tutur. Bu ölkələrin əsas kapitala yönəldilmiş investisiyaları sənaye (74,5%, onun da 72,5%-i hasilat sənayesi), tikinti (17,8%), elm (3,8%), nəqliyyat (3,4%) və rabitə (0,5%) sektorlarına ayrılmışdır[20]. Çox təəssüf ki, xarici investorlar əsas etibari ilə təbii ehtiyatların axtarışı və onların çıxarılması sahəsində investisiya yatırımlarında maraqlıdırlar. Çünki bu zaman investisiyalar daha tez geri dönmə qabiliyyətinə malik olur ki, bu da risk amilini azaldır. Məhz bu baxımdan, iqtisadiyyatın digər sahələri ümumi inkişaf tendensiyasından geri qalmaq məcburiyyəti ilə üzləşir. Bu daha çox istehsal sahələrində, iri müəssisələrin yaradılması və onların davamlı fəaliyyətində özünü biruzə verir.

Azərbaycanda iqtisadiyyatın sahələrinə investisiya qoyuluşu istehsalın dayanıqlı inkişaf dinamikasının müəyyən olunması üçün bir mənbədir. Lakin ümumi investisiyaların strukturunda sənayenin payı hər zaman olduğu kimi ilk yeri tutsa da. 2015-ci ildə onun payı 53,3% olduğu halda 2021-ci ildə bir qədər azalaraq 44,6% olmuşdur. İkinci yerdə ölkəmizdə daha intensiv şəkildə inkişaf etdirilən tikinti sektorudur. Tikinti sektorunun payı 24,0% olmaqla, onun əsas təminatçısı yerli tikinti şirkətləri hesab olunur. Növbəti yerləri nəqliyyat (17,0%), sosial təminat (4,6%), kənd təsərrüfatı (2,0%), ticarət (1,6%), təhsil (1,5%), turizm (1,1%) və digər sahələr tutur[20].

Azərbaycanın iqtisadi rayonları üzrə investisiya qoyuluşu hər zamankı kimi öz qeyri-tarazlığı ilə nəzərə çarpır. 2015 və 2021-ci illərdə iqtisadi rayonlara investisiya qoyuluşunun regional seqmentlərinin təhlili görərik ki, Bakı iqtisadi rayonu ilə ölkənin digər iqtisadi rayonlar arasında qeyri-bərabərlik hələ də qalmaqdadır. Bakı iqtisadi rayonuna investisiya qoyuluşunun daim yüksək olma yükünü bir qədər azaltmaq məqsədilə bir sıra dövlət proqramları hazırlanmışdır ki, onların da icrası regionlarda investisiya mühitinin

---

[20] Azərbaycanın statistik göstəriciləri (statistik məcmuə) / Rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 746 s.

nizamlanması prosesini yaxşılaşdıracaqdır. 2015-ci ildə ölkə üzrə ayrılan investisiyaların ümumi həçminin 73,5%-i təkcə Bakı iqtisadi rayonunun payına düşmüşdür. Regional miqyasda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə əlaqədar olaraq, Bakı iqtisadi rayonuna investisiya qoyuluşu 2021-ci ildə nisbətən azaldılaraq 60,7%-ə çatdırılmışdır. Bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlər nəticəsində digər iqtisadi rayonlara investisiya qoyuluşunda artım müşahidə edilmişdir. Əsas artım Qarabağ (8,0%), Şərgi Zəngəzur (5,1%) və Abşeron-Xızı (7,3%) iqtisadi rayonlarında qeydə alınmışdır[21]. Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında artıma təkanverici amil "Böyük qayıdış" dövlət proqramı olmuşdur[22]. Məhz bu amil, Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi qəbul olunmuş, onunla bağlı olan işlər isə sürətlə icra olunmaqdadır.

Azərbaycan iqtisadi rayonlarının ərazisinə və əhali sayına görə investisiya qoyuluşunun təhlili görərik ki, Bakı iqtisadi rayonu yenə də digər iqtisadi rayonlardan üstündür. Növbəti yerləri Abşeron-Xızı, Naxçıvan, Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonları tutur. İnvestisiya qoyuluşu orta səviyyədə olan iqtisadi rayonlara Gəncə-Daşkəsən, Quba-Xaçmaz, Qazax-Tovuz, Dağlıq Şirvan, nisbətən az investisiya qoyuluşu olan iqtisadi rayonlara isə Şirvan-Salyan, Lənkəran-Astara, Mərkəzi Aran, Şəki-Zaqatala, Mil-Muğan aid edilir (cədvəl 1).

Azərbaycanda istehsal sahələrinin dayanıqlı ərazi təşkilində əsas faktorlardan biri sənaye ilə bağlıdır. 2021-ci ildə sənaye istehsalının aparıcı qüvvəsi hesab olunan neft hasilatının 98,7%-i, qaz hasilatının 99,9%-i Bakı şəhərinin, yerdə qalan hissəsi isə Şirvan şəhəri, Salyan, Neftçala və Siyəzən rayonlarının payına düşmüşdür. Bu amil, Bakı şəhərinin digər regionlardan fərqli olaraq daha yüksək templə inkişafına və ölkədə regional qeyri-bərabərliyin yaranmasına səbəb

---

[21] Azərbaycanın regionları (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 772 s.

[22] Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I dövlət proqramı // 16 noyabr 2022-ci ildə qəbul edilmişdir. – Bakı: [n. y.], – 2022. – 33 s.

olmuşdur[23]. Ölkədə sənaye məhsulları istehsalının da əsas hissəsi Bakı (82,0%), nisbətən kiçik hissəsi isə Abşeron-Xızı (7,5%) və Naxçıvan (1,9%) iqtisadi rayonlarında cəmlənmişdir. Bu 3 iqtisadi rayon ölkə üzrə ümumi sənaye məhsulları istehsalının 91,4%-ni verdiyi halda, istehsalın cəmi 8,6%-i digər 11 iqtisadi rayonun payına düşür (şəkil 1). Bu isə olduqca aşağı göstərici olub, sənayenin qeyri-bərabər ərazi təşkilini və regional inkişafın tam şəkildə özünü doğrultmadığını bir daha sübur edir.

Cədvəl 1.

Azərbaycanın iqtisadi rayonlarının ərazisinə və əhalisinə görə investisiya qoyuluşu (2021-ci il)

| İqtisadi rayonlar | Ərazisi, min km² | Əhalinin sayı, min nəfər | İnvestisiya qoyuluşu, min manat | Hər km²-ə investisiya qoyuluşu, min manat | Adambaşına investisiya qoyuluşu, manat |
|---|---|---|---|---|---|
| Bakı | 2,14 | 2303,1 | 10187183,1 | 4760365,9 | 4423,3 |
| Naxçıvan | 5,50 | 463,0 | 1062165,8 | 193121,0 | 2294,1 |
| Abşeron-Xızı | 3,73 | 579,9 | 1232180,8 | 330343,4 | 2124,8 |
| Dağlıq Şirvan | 6,13 | 326,8 | 224025,2 | 36545,7 | 685,5 |
| Gəncə-Daşkəsən | 5,27 | 612,1 | 422438,2 | 80159,1 | 690,1 |
| Qarabağ | 8,99 | 907,9 | 1342032,7 | 149280,6 | 1478,2 |
| Qazax-Tovuz | 7,03 | 690,6 | 272930,0 | 38823,6 | 395,2 |
| Quba-Xaçmaz | 6,96 | 561,8 | 446179,5 | 64106,3 | 794,2 |
| Lənkəran-Astara | 6,07 | 959,4 | 151446,1 | 24949,9 | 157,9 |
| Mərkəzi Aran | 6,69 | 743,2 | 151394,7 | 22630,0 | 203,7 |
| Mil-Muğan | 5,67 | 526,4 | 85147,7 | 15017,2 | 161,9 |
| Şəki-Zaqatala | 8,84 | 632,9 | 193252,4 | 21861,1 | 305,3 |
| Şərqi Zəngəzur | 7,47 | 345,0 | 862228,9 | 115425,6 | 2499,2 |
| Şirvan-Salyan | 6,08 | 504,3 | 156047,8 | 25665,8 | 309,4 |

Mənbə: Azərbaycanın regionlar. Bakı, 2022

Azərbaycan yeni aqrar bazar münasibətləri şəraitində radikal dəyişikliklər aparmaqla aqrar sənaye strukturunun təşkili və idarə olunmasının regional məkan strategiyasını həyata keçirmiş, dinamik və transformasiya edilmiş sosial-iqtisadi və coğrafi konsepsiyasnın tətbiqinə cəhd göstərmişdir. Məqsəd, aqrar sənayenin coğrafi ərazi

[23] Azərbaycanın sənayesi (statistik məcmuə) / Rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 212 s.

təşkili formaları və mexanizmlərinin sistemli fəaliyyətini təmin etmək, funksional strukturun optimal variantlarını işləyib hazırlamaqdır.




Şəkil 1. Azərbaycanın sənaye xəritəsi

Apardığımız riyazi-statistik hesablamalara əsasən deyə bilərik ki, 1995-ci ildə ümumi kənd təsərrüfatı məhsulları istehsalının 32,1%-i, 2021-ci ildə isə 9,7%-i aqrar sənaye istehsalının payına düşmüşdür[24] (diaqram 1). Ümumi kənd təsərrüfatı məhsullarının istehsalında artım nəzərə çarpsa da, aqrar sənaye istehsalında kəskin azalma müşahidə edilmişdir.




Mənbə: Azərbaycanın kənd təsərrüfatı. Bakı: 2022.

Diaqram 1. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında aqrar sənayenın payı, %-lə

Aqrar sənaye istehsalında iqtisadi-coğrafi effektlik ilk növbədə kənd təsərrüfatı məhsullarının ərazi-tipoloji inkişafının təkamülündən asılıdır. Son illər ölkəmizdə bir çox kənd təsərrüfatı məhsullarının istehsalı və onların emalı ilə məşğul olan yeni aqrar sənaye müəssisələri yaradılsa da, onların bəziləri regional miqyasda səmərəli ərazi təşkilinə cavab vermir. Məsələn, 1931-ci ildə yaradılan 2008-ci ildə isə yenidənqurma işləri aparılan, aylıq istehsal gücü 25 tona çatdırılan Şəki İpək kombinatı, 2010-cu ildə "Gilan" MMC tərəfindən istifadəyə verilən, sutkalıq istehsal gücü 30 ton olan Zaqatala süd emalı zavodu və s. müəssisələr buna misal ola bilər. Hazırda bu aqrar sənaye müəssisələrinin fəaliyyəti ya dayandırılmış ya da onlar qismət tam gücləri ilə işləmirlər. Səbəb kimi, xammalın çatışmazlığı əsas götürülür. Bu sahədə vəziyyəti yaxşılaşdırmaq məqsədilə dövlət strateji investor qismində çıxış edərək, aqrar sənaye biznesinə birbaşa dəstək göstərir, aqrar-istehsalda baş verən regional problemləri aradan qaldırmaq üçün yeni ixracyönümlü ticarəti formalaşdırmağa çalışır.

[24] Azərbaycanın kənd təsərrüfatı (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 774 s.

Aqrar sənaye ilə yanaşı, ölkə iqtisadiyyatının prioritet sahələrindən biri də turizm sənayesidir. "*Turizm sənayesi – turist xidmətlərinə olan tələbatı ödəmək üçün nəzərdə tutulan: istehsal, gecələmə, qidalanma, nəqliyyat, ticarət, əyləncə və s. obyektlər sistemidir*"[25]. Turizm sənayesinin əsas vəzifəsi turistlərin istehlakçı ehtiyaclarının ödənilməsidir. Bu ehtiyaclar çoxşaxəli zəncirvari formada olub, "fərdi turist xidməti – turoperator – turagent – turist" arasında vasitəçi strukturunu özündə birləşdirir.

Turizmin təşviqi və inkişafı baxımından turagent və turoperatorların rolu olduqca vacibdir. Onların vasitəsi ilə turistlər ölkəyə cəlb olunaraq, turizm dövriyyəsində iştirak edir, ölkədə turizmin bazar seqmentlərini formalaşdırırlar. Turizm sənayesində turagent və turoperatorların fəaliyyəti daha az riskli olsa da, COVİD-19 pandemiyası dövründə biz bunun əksini gördük. Azərbaycanda turagent və turoperatorların, eləcə də onlarda çalışan işçilərin sayının kəskin şəklildə azaldığını müşahidə edirik. Belə ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə turagent və turoperatorların sayı 132 vahid, 2019-2021-ci illərdə isə 282 vahid azalaraq onların sayı 150 olmuşdur. Müvafiq olaraq, turagent və turoperatorlarda çalışan işçilərin sayında da azalma qeydə alınmışdır. 2019-2020-ci illərdə 741 işçi, 2019-2021-ci illərdə isə 1243 işçi öz iş yerlərindən məhrum olmuşdular[26]. Bu olduqca ciddi bir göstərici olub, turizm sənayesində inkişaf tempini ləngidən amilllər sırasındadır.

Turagent və turoperatorların fəaliyyətinin əsas göstəricilərdən biri də, onların əldə etdikləri gəlirlər və məhsulun istehsalına çəkdikləri xərclərlə ölçülür. Riyazi-statistik təhlillər əsasında deyə bilərik ki, 2006-2019-cu illər ərzində turagent və turoperatorın əldə etdikləri gəlirlər daim yüksək olmuşdur. Onlar tərəfindən turistlərə göstərilən xidmətlərə çəkdikləri xərclərdə isə 2016-ci il istisna olmaqla, artım dinamikası baş vermişdir. 2019-cu il həmçinin gəlir (63,3 mln manat) və xərc (50,4 mln manat) baxımından, ən pik il olmuşdur. Növbəti illərdə isə COVID-19 pandemiyası səbəbindən kəskin azalmalar baş

[25] Акентьева, С.И. Организация туристской индустрии / С.И. Акентьева, В.В. Игнатьева, Г.В. Петрова. – Москва: Академия, – 2014. – 320 с.
[26] Azərbaycada turizm (statistik məcmuə) / rəhbər T.Budaqov. – Bakı: Narıncı, – 2022. – 100 s.

vermiş və artıq 2021-ci ildə gəlirlər 22,6 mln manat, xərclər isə 19,6 mln manata qədər azalmışdır[26]. Turagent və turoperatorların vasitəçiliyi ilə Azərbaycana gələn turistlərin əsas hissəsini Birləşmiş Ərəb Əmirliyi, Rusiya, İsrail, Çin, Türkiyə və b., xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının isə əsas hissəsi Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan, Birləşmiş Ərəb Əmirliyi və s. ölkələrə üstünlük verirlər.

Turoperatorlar turizm məhsulunu formalaşdırarkən mehmanxanalarla daim qarşılıqlı əlaqədə olur və onların xidmətlərini turistlərə təklif edir. Azərbaycanda mehmanxanaların gəlir və xərcləri arasında tendensiya 2010-2019-cu illərdə müsbət olsa da, 2020-2021-ci illərdə COVİD-19 pandemiyası səbəbindən gəlirlərin kəskin, xərclərin isə nisbətən azalması müşahidə olunmuşdur. Lakin bu illər ərzində gəlir və xərclər arasında saldo əmsalı 2020-ci ildə –55007,1 min manat, 2021-ci ildə – 21780,7 min manat olmuş, xərclər gəlirləri üstələmişdir[26]. Gəlirlər əsasən, mehmanxana nömrələrinin satışı, ictimai iaşə xidmətlərinin təqdim olunması, müalicə-sağlamlıq paketlərinin təklifi ilə bağlı olsa da, xərclər qonaqların içkiləri və qidalanmasına, onların sərf etdikləri yanacaq və enerjiyə, işçilərin əmək haqlarına, vergi ödənişlərinə və mehmanxanaların təmirinə çəkilmişdir.

Turizm sənayesinin fəaliyyətinin təhlili mürəkkəb bir proses olub, iqtisadi göstəricilərin, yəni, gəlir və xərclər arasında ümumi bir yanaşmanın olmasını tələb edir. Azərbaycanın əksər regionlarında turizm sənayesinin hazırkı vəziyyəti zəif inkişafı tərənnüm edir. 2021-ci ildə gəlirlərin əsas hissəsi, yəni 61,3%-i Bakı, 14,3%-i Quba-Xaçmaz, 9,9%-i Şəki-Zaqatala, 4,8%-i Lənkəran-Astara, xəcrlərin isə 55,8%-i Bakı, 16,2%-i Quba-Xaçmaz, 9,4%-i Şəki-Zaqatala, 7,9%-i Lənkəran-Astara, 5,4%-i Gəncə-Daşkəsən iqtisadi rayonlarının payına düşmüşdür. Digər iqtisadi rayonlar isə mehmanxana sənayesinin inkişaf tendensiyasından geri qaldıqları üçün onların gəlir və xərclərinin statistik göstəriciləri olduqca aşağı qiymətləndirilir. Bu baxımdan, daha əyani şəkildə regional dayanıqlı turizm sənayesini təhlil etmək üçün mehmanxanaların gəlir və xərcləri arasında ümumi bir məntiqi nəticə çıxarmaq məqsədilə anamorfoz xəritələr tərəfimizdən tərtib edilmişdir.




*2010 və 2021-ci illərdə gəlirlər*




*2010 və 2021-ci illərdə xərclər*

Şəkil 2. Azərbaycan mehmanxanalarının anamorfoz xəritələri (2010-2021-ci illər)

Turizm sənayesinin inkişaf etdirilmə zərurəti onunla izah olunur ki, bu sahə ölkəyə valyuta axınına səbəb olur, məşğulluğu artırır, maliyyə balansını nizamlayır, iqtisadiyyatın şaxələndirilməsinə gətirib çıxarır, ev təsərrüfatlarının gəlirlərinin yaxşılaşdırılmasına töhvə verir. Azərbaycanda 2021-ci ildə turizm sənayesinə (istirahət və əyləncə yerləri ilə birlikdə) ayrılan investisiyaların həcmi 242,4 mln manat dəyərində olmuşdur. Bu göstəricini 2010-cu il göstəriciləri ilə müqayisəsi göstərir ki, turizm sənayesinə investisiya qoyuluşu 3,9 dəfə, ən pik il hesab olunan 2014-cü il ilə müqayisədə isə 9,1 dəfə azalmışdır (diaqram 2). Turizm sənayesi qeyri-neft sektorunun ən gəlirli sahəsi hesab olunsa da, bu sahəyə investisiya qoyuluşunun digər sahələrlə müqayisədə olduqca aşağı olması onun inkişafını ləngidən səbəblərdən biri hesab olunur.




Mənbə: Azərbaycanda turizm. Bakı, 2022

Diaqram 2. Azərbaycanda turizm sənayesinə ayrılan investisiyalar, mln manat

Azərbaycan hökuməti beynəlxalq təcrübəyə əsaslanaraq turizm sənayesini inkişaf etdirmək üçün ilk öncə bu sahədə investisiya siyasətini təkmilləşdirməlidir. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi turizm sənayesinə investisiya qoruluşu yolu ilə regional turizmin inkişafına çalışmalıdır. Lakin agentlik beynəlxalq turizmlə bağlı Londonda qastronomik turizm, orintoloji turizm, Frankfurtda işgüzar turizm, Təl-Əvivdə turizm fotosərgisi, UNESCO ilə İpək Yolu, Türkiyə, Yaponiya, İsrail, Rusiya, Macarıstan, Meksika, Pakistan, Birləşmiş Ərəb Əmirliyi və b. dövlətlərlə turizm əlaqələrini müzakirə edir, daxili turizmlə bağlı Xınalıq, Basqal və b. kənd sakinləri arasında təbliğat işləri aparırlar. Bütün bu görülən işlər turizm sənayesinin inkişafına istənilən və ya gözlənilən səviyyədə təsir etmir.

Dissertasiya işinin üçüncü fəsli "**Azərbaycanda dayanıqlı inkişafın regional aspektləri və iqtisadi-coğrafi modeli**"nə həsr edilmişdir. Bu fəsildə istehsal sahələrinin regional ərazi təşkilinin dayanıqlığını müəyyən etmək üçün klaster konsepsiyasından istifadə edilmiş və onun məntiqi nəticəsi kimi regional dayanıqlı inkişafda istehsal sahələrinin SWOT təhlili aparılmışdır. Bunlarla yanaşı, üçüncü fəsildə Azərbaycanın dayanıqlı inkişafında Xəzər dənizinin sahilboyu regionalarının iqtisadi-coğrafi paradiqması hesablanmış və istehsal sahələrində dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modeli hazırlanmışdır.

Son illər dünya praktikasında istehsal sahələrində dayanıqlığı müəyyən etmək üçün ən geniş istifadə edilən tədqiqat metodlarından biri “klaster” metodudur. Çünki iqtisadi və innovasiya yönümlü inkişafa klaster metodu ilə yanaşma, bu inkişafı daha aydın şəkildə təsvir etməyə imkan verir. Belə ki, klaster tələb və təkliflər arasında regional kommunikasiyalara əsaslanan istehsal sahələrini müəyyən etməkdə yardımçı rolunu oynayır[27]. Amerikalı alim M.Porterə görə klaster coğrafi cəhətdən bir-biri ilə bağlı olan sahələr (istehsalçılar və s.) və onları əlaqələndirən infrastruktur qrupudur. Klasterin fərqləndirici xüsusiyyəti onun innovativ yönümlü olması və keyfiyyət kateqoriyasına keçidi təmin etməsidir. Ən uğurlu klaster isə istehsal texnologiyası sahəsində “sıçrayışın” baş verdiyi və ya gözlənildiyi bir forma olduğunu bildirir[28].

İstehsal sahələrində dayanıqlı inkişafı tam səciyyələndirmək üçün klaster metodunu tətbiq etməklə iqtisadi göstəricilərin, xüsusən də Ümumi Daxili Məhsul (ÜDM) göstəricilərinin təhlilinin aparılması tələb olunur.

Azərbaycanda ÜDM-in 1995-2021-ci illər arası təhlili tərəddüdlərin və ziddiyətlərin olduğunu ortaya çıxarır. Belə ki, manatın ABŞ dollarına nisbəti də nəzərə alınmaqla, ölkə iqtisadiyyatında ümumi bir tendensiyanın baş verdiyini müşahidə etmək olar. İqtisadiyyatın inkişaf tendensiyasını manatla ifadə etsək görərik ki, 1995 və 2021-ci illərin müqayisəsində 43,7 dəfə artım olmuşdur. Bu olduqca yüksək bir göstəricidir. Lakin inkişaf tendensiyası müvafiq olaraq ABŞ dolları ilə aparılsa onda artımın 22,7 dəfə olmasını, amma bəzi illərdə (2008-2009 və 2019-2020-ci illərdə) kiçik, bəzi illərdə (2014-2016-cı illərdə) isə kəskin azalmasını görə bilərik (diaqram 3). Azalmaya səbəb, dünyada baş verən iqtisadi böhranlar, manatın devalivasiyası, eləcə də COVİD-19 pandemiyası dövründə ticarət əlaqələrinin zəifləməsi olmuşdur.

---

[27] Айбулатов, Н.А., Андреева, Е.Н., Вылегжанин, А.Н., Михайличенко, Ю.Г. Природопользование в прибрежной зоне морей России // – Москва: Известия Российской академии наук, Серия география, – 2005. № 4. – с. 13–26.

[28] Портер, М. Конкурентная стратегия: методика анализа отраслей и конкурентов / М. Портер. – Москва: Альпина Бизнес Букс, – 2007. – 453 с.




Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2016, 2022.

Diaqram 3. Azərbaycanda ÜDM-in həcmi, mln manat və mln ABŞ dolları ilə

ÜDM-in artımı və ya azalması ölkədə iqtisadi istehsal sahələrinə də təsir edir. Əldə etdiyimiz statistik göstəricilər və onların kompleks təhlili 2010 və 2021-ci illərdə iqtisadi fəaliyyət sahələrində müəyyən dəyişikliklərin baş verdiyini göstərir. Lakin bu problem hələ də müzakirə olunur və digər göstəricilərin, o cümlədən adambaşına düşən ÜDM-in tədqiqi yolu ilə daha dərin araşdırma tələb edir. Ölkə iqtisadiyyatına və onun dayanıqlı inkişaf göstəricilərinə təsir edən ən mühüm sahələr sənaye, aqrar sənaye və turizm sənayesində dəyişikliklər bir qədər fərqli olmuşdur. Belə ki, 2010-cu ildə ÜDM-də sənayenin payı 51,7% (21942,2 mln manat) olduğu halda, 2021-ci ildə bu göstərici azalaraq 42,9% (39956,6 mln manat) olmuşdur. Aqrar və turizm sənayesi sahələrində isə artım qeydə alınmışdır. 2010-cu ildə aqrar sənayenin payı 5,5% (2344,6 mln manat), turizm sənayesinin payı 1,7% (731,5 mln manat), 2021-ci ildə isə müvafiq olaraq 5,7% (5336,8 mln manat) və 2,0% (1859,9 mln manat) artsa da[29], bu sahələrdə dayanıqlı və ya regional inkişafa tam nail olmaq mümkün olmamışdır. Çünki faiz etibarı ilə ticarət, nəqliyyat, daşınmaz əmlak, sosial təminat, vergi və subsidiyaların göstəriciləri daha yüksək həddə çatmışdır.

[29] Azərbaycanın statistik göstəriciləri (statistik məcmuə) / Rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 746 s.

ÜDM göstəriciləri nəzərə alınmaqla iqtisadi-coğrafi təhlillərin aparılmasında klaster yanaşması istənilən ərazinin sosial-iqtisadi inkişafını müəyyən etmək üçün zəruri şərtlərdən biridir. Klaster istehsal sahələri arasında rəqabət qabiliyyətinin artırılmasına, istehsal ilə sıx əlaqəli olan infrastrukturun formalaşmasına təkan verir. Klaster iqtisadi inkişafa innovativ yanaşmanı da tələb edir. Bu yanaşma, yeni məhsulların yaradılmasına, istehsalda səmərəliliyin yüksəldilməsinə və davamlı istehsal şəbəkəsinin formalaşmasına köməklik göstərir.

Klasterləşmənin aparılması məqsədilə V.Yu.Pripoten sosial-iqtisadi inkişafın qiymətləndirilməsinə və iqtisadi artıma kömək edə biləcək stimullaşdırıcı və destimulyator metodundan istifadə etmişdir. Bu yanaşma metodu ilə qiymətləndirilmə aparılarkən mövcud olan çatışmazlıqları aradan qaldırmaq mümkündür[30]. Z.T.İmrani müxtəlif istehsal sahələri üzrə kəmiyyət göstəricilərini ümumi şəkilə gətirmək və regiondaxili klasterləşməni aparmaq məqsədilə aşağıdakı düsturu təklif etmişdir:

$$I_{x1,x2,x3\ldots xn} = \frac{I_{fak} - I_{min}}{I_{mak} - I_{min}}$$

burada, $I_{x_1,x_2,x_3\ldots x_n}$ – istehsalın ($x_1$ – sənaye, $x_2$ – aqrar sənaye, $x_3$ – turizm sənayesi, $x_n$ – və s.) ümumi əmsalı, $I_{mak}$ – istehsal dövrü maksimum əldə olunan gəlir, $I_{min}$ – istehsal dövrü minimum əldə olunan gəlir, $I_{fak}$ – istehsal dövründə faktiki göstərici.

İstehsal sahələri üzrə kəmiyyət göstəricilərinin əmsal qiymətlərinin dəyişmə intervalları 0,0-1,0 arasında tərəddüd edir. Belə ki, 0,0-0,2 çox zəif, 0,3-0,5 zəif, 0,6-0,8 orta, 0,9-1,0 yüksək inkişaf göstəricilərini göstərir.

Azərbaycanda istehsal sahələrinin regionlar üzrə inkişaf istiqamətlərini müəyyən etmək üçün təqdim edilən bu düstur əsasında hesablamalar aparılmış, sənaye, aqrar sənaye və turizm sənayesinin göstəriciləri klasterləşdirilmişdir (cədvəl 2).

---

[30] Припотень, В.Ю., Алферова, И.Е. Оценка социально-экономического развития региона как составляющая индикативного управления развитием // – Макеевка: Экономика строительства и городского хозяйства. – 2017, Т. 13, № 1, – с. 327-336.

Cədvəl 2.

## Azərbaycanın iqtisadi rayonları üzrə istehsal sahələrinin klasterləşdirilməsi

| İqtisadi rayonlar | Sənaye istehsalının həcmi, min manat | $I_s$ | Aqrar sənaye məhsulları istehsalının həcmi, min manat | $I_a$ | Turizm sənaye (mehmanxana) istehsalının həcmi, min manat | $I_t$ | Ümumiləşdirilmiş kəmiyyət göstəricisi, $I_{s,a,t}$ |
|---|---|---|---|---|---|---|---|
| Bakı | 45309744,1 | 1,000 | 115974,2 | 0,020 | 128542,7 | 1,000 | 1,000 |
| Naxçıvan | 1069655,7 | 0,023 | 572096,7 | 0,448 | 2411,1 | 0,017 | 0,033 |
| Abşeron-Xızı | 4125777,1 | 0,090 | 238490,5 | 0,135 | 1871,6 | 0,013 | 0,093 |
| Dağlıq Şirvan | 88589,5 | 0,001 | 401433,5 | 0,287 | 6244,5 | 0,048 | 0,008 |
| Gəncə-Daşkəsən | 860978,1 | 0,018 | 322116,0 | 0,213 | 6430,3 | 0,048 | 0,023 |
| Qarabağ | 194776,3 | 0,004 | 910375,5 | 0,765 | 931,0 | 0,006 | 0,022 |
| Qazax-Tovuz | 416258,7 | 0,009 | 1160497,6 | 1,000 | 807,8 | 0,005 | 0,032 |
| Quba-Xaçmaz | 305979,6 | 0,006 | 909613,2 | 0,764 | 29891,0 | 0,231 | 0,025 |
| Lənkəran-Astara | 340950,5 | 0,007 | 810736,4 | 0,671 | 10045,6 | 0,077 | 0,023 |
| Mərkəzi Aran | 646114,9 | 0,014 | 901565,6 | 0,757 | 1332,4 | 0,009 | 0,031 |
| Mil-Muğan | 554466,4 | 0,012 | 816192,8 | 0,677 | 159,4 | 0,000 | 0,027 |
| Şəki-Zaqatala | 440578,4 | 0,009 | 716694,0 | 0,583 | 20815,7 | 0,160 | 0,023 |
| Şərqi Zəngəzur | 7888,2 | 0,000 | 94448,9 | 0,000 | 0,0 | 0,000 | 0,000 |
| Şirvan-Salyan | 867323,3 | 0,018 | 635761,9 | 0,507 | 204,2 | 0,001 | 0,030 |

| Rəng | |
|---|---|
| (yaşıl) | 0,0-0,2 çox zəif |
| (narıncı) | 0,3-0,5 zəif |
| (mavi) | 0,6-0,8 orta |
| (bənövşəyi) | 0,9-1,0 yüksək |

*Mənbə: Azərbaycanın regionları. Bakı, 2022.*
*Qeyd: hesablanmalar Z.T.İmraninin təqdim etdiyi düstur əsasında aparılmışdır.*

Azərbaycan iqtisadi rayonlarının ümumi istehsal strukturunun kəmiyyət göstəricilərini vahid bir klasterə gətirsək, Bakı iqtisadi rayonunun yüksək inkişaf səviyyəsi ilə fərqləndiyinin seçildiyini görərik. Bunun da əsas səbəbi, sənaye istehsalının böyük bir hissəsinin Bakı iqtisadi rayonunda cəmləşməsidir. Ümumi inkişafa təsir edən bu göstərici son nəticədə dayanıqlı regional inkişafın hələ də özünü tam şəkildə doğrultmadığını, Bakı iqtisadi rayonu ilə digər iqtisadi rayonlar arasında kəskin fərqlərin mövcud olduğunu sübut edir.

Mövcud elmi-metodiki və metodoloji yanaşmalar, müxtəlif metodların tətbiqi və s. tədqiqat prosesi zamanı geniş istifadə edilmişdir. Son illər müasir elmi yanaşmalarda SWOT (Strengths-Weaknesses-Opportunities-Threats) təhlili metodundan geniş istifadə olunur. SWOT təhlili metodunun açıqlanması güclü və zəif tərəflərin müəyyən edilib üzə çıxarılması, potensial imkanların dəyərləndirilməsi, təhlükə və risklərin proqnozlaşdırılması kimi izah olunur. Bu təhlil metodunun üstün xüsusiyyəti, coğrafi məkan mövqeyinin xarici təsirlərə münasibətdə nəzərə alınmasıdır. SWOT təhlili metodunun güclü tələfləri və imkanları ondan ibarətdir ki, gələcək dinamik inkişaf üçün müsbət zəmin yaradır, zəif tərəflər və təhdidlər ümumi inkişafı ləngidir və kiçik problemləri kəskinləşdirir. Bu təhlil metodu həmçinin, ərazinin inkişafı üçün prioritet istehsal sahələrinin seçməsinə də imkan yaradır.

Azərbaycanın regional dayanıqlı inkişafında istehsal sahələrinin məqsədli öyrənilməsi və elmi-təcrübi nəticələrin çıxarılması üçün SWOT təhlili vacib vasitələrdən biridir. SWOT təhlili əsasında apardığımız araşdırmalar nəticəsində istehsal sahələrinin regional dayanıqlığını müəyyən etməyə çalışmışıq (cədvəl 3). Qeyd edilməlidir ki, istehsal sahələrinin SWOT təhlili aparılarkən elmi-nəzəri biliklərə üstünlük verilmişdir. Çünki SWOT təhlili strateji alternativlərlə bağlı nəticələrin çıxarılmasında yardımçı rolunu oynayır. Elə bu məqsədlə, Azərbaycanda fəaliyyət göstərən istehsal müəssisələrinin kəmiyyət göstəricilərinin SWOT təhlili aparılmışdır. Əldə etdiyimiz nəticələr elmi baxımdan dəqiq qruplaşdırılmış, istehsal sahələrinin fəaliyyətində müşahidə edilən problemlərin (zəif tərəflər, təhlükə və risklər) həllinə yönəldilmiş fürsətlər və imkanlar aydın şəkildə göstərilmişdir.

Cədvəl 3.

SWOT təhlili əsasında regionlarda istehsal sahələrinin dayanıqlığı

| |
|---|
| **Strengths** (Güclü və üstün tərəflər) |
| – zəngin təbii ehtiyatlara malik olması;<br>– yerli istehsalın inkişafında və təbliğində dövlətin marağı;<br>– yeni istehsal sahələrinin yaradılmasını və onların inkişafını dəstəkləyən dövlət və regional proqramların olması;<br>– davamlı olaraq dövlət investisiya vəsaitlərinin ayırması və s. |
| **Weaknesses** (Zəif tərəflər) |
| – istehsal müəssisələrinin aşağı göstəricilərə malik olması;<br>– xarici investorların zəif işgüzar fəallığı;<br>– bəzi yeni açılmış müəssisələrin tam gücü ilə işləməməsi;<br>– yeni məhsulların satışı və təşviqi üçün marketinq fəaliyyətinin aparılmaması və s. |
| **Opportunities** (Fürsətlər və imkanlar) |
| – təbii ehtiyatların istehsal dövriyyəsinə cəlb edilməsi;<br>– yeni istehsal müəssisələrinin yaradılması;<br>– satış bazarlarının genişləndirilməsi və tələbata uyğun istehsalın artırılması;<br>– istehsalat sahələrinə ixtisaslı kadrların cəlb edilməsi;<br>– istehsal prosesində innovativ yanaşma;<br>– yeni iş yerlərinin açılması və məşğulluğun artırılması və s. |
| **Threats** (Təhlükə və risklər) |
| – istehsal sahələrinin potensial imkanlarının tam öyrənilməməsi;<br>– müxtəlif meyarlar əsasında qiymətləndirmənin aparılmaması;<br>– klaster metodunun tətbiq edilməməsi;<br>– fövqəladə hallar zamanı istehsal dövriyyəsinin pozulması və s. |

Qeyd: Z.T.İmrani tərəfindən tərtib edilmişdir.

Müasir dövrdə istehsal sahələrinin bir qayda olaraq inkişafı həmin regionda əhali sayının artımı, iqtisadi islahatların keçirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması və s. amillərin iştirakı ilə mümkündür. Xəzər dənizinin ətrafında yerləşən beş ölkə (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan, İran) arasında əhali məskunlaşmasına, istehsal sahələrinin inkişaf tempinə, dinamikasına və diversifikasiyasına görə sahil-dəniz iqtisadiyyatı ilə ən çox təmasda olan ölkəsi Azərbaycandır. Xəzər dənizinin sahilboyu zonasında

yerləşən bütün şəhər və rayonlar öz sosial-iqtisadi göstəricilərinə görə ölkənin digər regionlarından fərqlənir.

Xəzər dənizinin sahilboyu ərazisi 14,65 min km$^2$ olmaqla, ölkə ərazisinin 16,9%-ni, əhalisi 3972,9 min (2021-ci il) nəfər olmaqla, ölkə əhalisinin 39,1%-ni təşkil edir. Daxili zonalar isə bu göstəricilərə görə bir-birindən kəskin olaraq fərqlənirlər. Belə ki, Şimal zona ümumi ərazinin 30,8%-ni, əhalinin 7,6%-ni, Mərkəz zona ərazinin 28,7%-ni, əhalinin 72,1%-ni, Cənub zona isə ərazinin 40,5%-ni, əhalinin 20,3%-ni təşkil edir[31]. Lakin aparılan araşdırmalar nəticəsində Xəzər dənizinin sahilboyu regionunda, əsasən, Bakı şəhərində ölkə əhalisinin 58,8%-inin (5972,9 min nəfər) cəmləşdiyi müəyyən edilmişdir. Ölkənin müxtəlif ərazilərindən Bakı və Sumqayıt şəhərlərinə iş ilə əlaqədar miqrasiya edən və qeydiyyata düşməyən əhali urbanizasiya (yalançı urbanizasiya) səviyyəsinin artmasına səbəb olmuşdur.

Xəzər dənizinin sahilboyu regionlarında adambaşına düşən ÜDM-in həcmi və sənaye məhsullarının istehsalına görə Bakı şəhəri yenə də digər ərazilərdən kəskin fərqlənir. Əldə olunan göstəriciləri ölkə göstəriciləri ilə müqayisə etsək görərik ki, fərq olduqca ciddi şəkil almış və regional dayanıqlı siyasətin təminatında problemlər yaradır. Öz inkişaf tendensiyası ilə Bakı şəhərinə tam uyğun olmasa da, digər ərazilərdən seçilən Sumqayıt şəhərində də həm adambaşına düşən ÜDM-in həcmi, həm də sənaye məhsulu istehsalının həcmi nisbətən yüksəkdir. Digər şəhər və rayonlarda isə adambaşına düşən ÜDM-in həcmi və sənaye məhsulu istehsalında fərqlərin olduğu və ümumi inkişafdan geri qalmaları nəzərə çarpır (şəkil 3).

Apardığımız araşdırmaların əsas məqsədi dayanıqlı inkişafa keçidi təmin etmək üçün təbii ehtiyatlardan rasional istifadəyə əsaslanan və regional problemlərin həllində biebaşa iştirak edən iqtisadi-coğrafi yanaşma metodlarından istifadə etməkdir. Çünki regional inkişaf dayanıqlı inkişaf modelinin həyata keçirilməsinin əsas xarakterik xüsusiyyətidir.

---

[31] Azərbaycanın demoqrafik göstəriciləri (statistik məcmuə) / Rəhbərlik T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 560 s.




Şəkil. 3. Xəzər dənizinin sahilboyu şəhər və rayonlarında adambaşına düşən ÜDM və istehsal olunan sənaye məhsullarının həcmi xəritəsi

Dayanıqlı inkişaf strategiyası əsas etibari ilə iqtisadi, sosial və ekoloji istiqamətli olub, insanların fizioloji və şəxsi ehtiyaclarının (maddi, mənəvi, mədəni və s.) ödənilməsi ilə diqqəti cəlb edir[32]. Bu isə istehsal sahələrinin müasir vəziyyətindən, təbii ehtiyatların funksionallığından,iqtisadi münasibətlərdən, insanların sosial həyat tərzindən, ekoloji mühitin sağlamlığından və s.-dən asılıdır[33]. Bu istiqamətdə müxtəlif illərdə bir neçə model tədqiq edilmişdir.

[32] İmrani, Z.T. Azərbaycanda dayanıqlı inkişaf siyasətinin regional aspektləri // "Azərbaycan regionlarının coğrafi problemləri" respublika elmi-praktiki konfransı. – Bakı: – 2016. – s. 101-104.
[33] Шимова, О.С. Устойчивое развитие / О.С. Шимова. – Минск: БГЭУ, – 2017. – с. 394.

Məsələn, A.Maslounun təklif etdiyi insan motivasiyası ilə bağlı ehtiyaclarını çatışmazlıq və yüksəlməsi, onların iyerarxiya nəzəriyyəsini irəli sürmüş, ehtiyaclar ödənildikdən sonra isə gələcəkdə hansı problemlərin yarana biləcəyini aşkar etməyə çalışmışdır. Fizioloji, təhlükəsizlik, mənsubiyyət, bacarıq, bilik, estetiklik, özünü reallaşdırmaq və mövcud təbii potensialı həyata keçirmək əsasında isə A.Maslou "Ehtiyac piramida modeli"ni vermişdir[34]. Bunları nəzərə alaraq, Z.T.İmrani "Dayanıqlı inkişaf modeli"ni A.Maslounun ehtiyac piramidası əsasında qurula biləcəyini qeyd etmişdir (qrafik 2).




Qeyd: model Z.T.İmrani tərəfindən tərtib edilmişdir.

Qrafik 2. Dayanıqlı inkişaf modeli

Azərbaycanda dayanıqlı inkişafın "tələb və təklif" konsepsiyası qeyri-karbohidrogen resurslarından kompleks istifadə etməklə, dövlətin strateji kapital ehtiyatının yaradılmasına yönəldilmişdir[35]. Ümumi forma daxilində milli dayanıqlı inkişaf modelinin yaradılması strategiyasının əsas məqsədi istehsal sahələrinin optimallıq

[34] Maslow, A.H. A Theory of Human Motivation // – Washington: Psychological Review, – 1943. No 50, – p. 370-396

[35] Qurbanzadə, A.A. XXI əsr: dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. – Bakı: Kooperasiya, – 2015. – 216 s.

səviyyəsinin kompleks inkişafına nail olmaqdır. Faktiki olaraq, regional dayanıqlı inkişafın praktiki ideya mənbəyini ərazi-istehsal kompleksləri təşkil edir. Məhz bu amil, istehsal sahələrinin inkişaf prosesini daha səmərəli həyata keçirmək üçün dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modelinin yaradılmasını tələb edir (qrafik 3).




Qeyd: qrafik Z.T.İmrani tərəfindən tərtib edilmişdir.

Qrafik 3.4.10. Dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modeli

Model, istehlakçıların ehtiyaclarını ödəmək üçün istehsal və xidmət sahələrinin inkişafına və təkmilləşdirilməsinə yönəldilmiş bir istiqamətə, eləcə də qlobal rəqabət şəraitində elm, innovasiya və idarəetmənin ən mühüm komponentinə çevrilə bilər. Bunun üçün ilk növbədə, dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modelinin strateji məqsəd və prioritetlərini müəyyən etmək lazımdır

Dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modelinə nəzər salsaq görərik ki, indiki və gələcək nəsillərə minimum zərər və maksimum fayda gətirməklə, sistemin bütün iştirakçılarının maraqlarını qorumaq və onlar arasında balanslaşdırılmış mühit yaratmaq mümkündür.

Dissertasiya işinin dördüncü fəsli "**Azərbaycanın innovativ inkişaf yolu ilə dünya iqtisadiyyatına inteqrasiyası və xarici iqtisadi-ticarət əlaqələrinin coğrafiyası**"na həsr edilmişdir. Bu fəsildə dünya təcrübəsi öyrənilməklə istehsal sahələrinə innovativ modern yanaşmanın tətbiqi yolları araşdırılmış, eləcə də istehsal sahələrinin dünya iqtisadiyyatına inteqrasiyasının coğrafi paradiqması xarici ticarət siyasətinin və ticarət əlaqələrinin coğrafiyası nəzərə alınmaqla verilmişdir.

Dünya iqtisadiyyatının inkişaf fonu istehsalata innovasiyaların tətbiqinin, yəni, elmin yeni nəaliyyətlərinin, eləcə də insanların bilik və bacarıqlarının inkişaf səviyyəsinin dinamik hala gətirildiyini göstərir ki, bu da dayanıqlı və davamlı iqtisadi yüksəlişə zəmin yaradır. Son illərdə istehsal sahələrinə elmi-texniki tərəqqinin tətbiqi sürətli inkişafı təmin edir, intensiv elmi tədqiqatların aparılmasına təkan verir, istehsalın strukturuna təsir göstərir və yeni paradiqma formalaşdırır.

İnnovasiya mühitinin formalaşdırılması və innovativ proseslərin həyata keçirilməsi müxtəlif texnoloji modellər əsasında həyata keçirilir[36]: 1) Yaponiya modeli – iqtisadi artım elmi, texniki və innovativ fəaliyyətə əsaslanır, innovasiya proseslərində dövlət fəal iştirak edir; 2) ABŞ modeli – sahibkarlıq subyektləri innovativ fəaliyyətə üstünlük verir, onu stimullaşdırmaq üçün əlverişli siyasi,

---

[36] Сапегина, О.П. Модели государственной инновационной политики в «странах высоких технологий» // – Тамбов: Научный альманах. – 2017. № 3–1(29). – с. 223-226.

hüquqi, iqtisadi və digər layihələrin yaradılmasını nəzərdə tutur, dövlət qeyri-mərkəzləşdiriliş strategiyaya əsaslanır; 3) Avropa İttifaqı modeli – şaxəli model olub, iqtisadiyyatın vacib strateji sahələrinə dövlətin aktiv müdaxiləsi əsasında innovasiya proseslərini dolayı stimullaşdırır, elmi-tədqiqat və təkmilləşdirmə sahəsində əməkdaşlığı genişləndirir, qlobal iqtisadiyyatda rəqabətqabiliyyətli mövqeni gücləndirərək innovasiya fəaliyyətinin səmərəliliyini artırır.

Müasir dövrün innovasiya siyasəti regional dayanıqlı sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi qəbul olunur. Bu da elmi-texniki nailiyyətlərin konseptual əsasını təşkil edir. Çünki texnoloji yeniliklər inkişafın stimullaşdırılmasında, istehsal sahələrinin prioritet istqamətlərinin müəyyən edilməsində vasitəçi rolunu oynayır. Azərbaycanda innovasiya yeniliklərinə meyl etdiyindən bu sahəyə daimi investisiya qoyuluşuna maraqlıdır. Lakin 2005 və 2021-ci illəri təhlil etsək görərik ki, innovasiyalara çəkilən ümumi xərclər 9,1 dəfə azalmışdır. 2005-ci ildə Azərbaycanda innovasiyalara çəkilən ümumi xərclərin 82,4%-i (43892,0 min manat) hasilat sənayesinin, 17,6%-i (8572,5 min manat) emal sənayesinin, 2021-ci ildə 9,1%-i (529,8 min manat) hasilat sənayesinin, 90,9%-i (5318,5 min manat) emal sənayesinin payına düşmüşdür (diaqram 4).




Mənbə: Azərbaycanın sənayesi. Bakı, 2022

Diaqram 4. Azərbaycanda innovasiyalara çəkilən xərclər, min manat

Azərbaycanda istehsal sahələrinə innovativ yanaşmaların əsas səbəblərindən biri də inteqrasiya ilə bağlıdır. Çünki inteqrasiya müxtəlif sahələrin diferensial və funksional əlaqələrini, eləcə də hadisə və prosesləri ifadə edən anlayışdır. İnteqrasiya ölkə üçün

strateji əhəmiyyət kəsb edən təbii və sosial-iqtisadi resursların idarə olunmasına xidmət etməklə yanaşı, onların dünya bazarında rəqabət qabiliyyətinin, investisiya cəlbediciliyinin və istehsal sahələrinin səmərəli fəaliyyətinin artırılmasına imkan yaradır.

"*Müasir dövrümüzdə inteqrasiya mərhələlərinə: azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, iqtisadi birlik və valyuta birliyi aid edilir*"[37]. Azərbaycan demək olar ki, bütün inteqrasiya mərhələlərində özünü göstərməkdədir. Ölkəmizdə Azad ticarət zonası kimi Ələt azad iqtisadi zonası; gömrük əməkdaşlığı çərçicəsində Avropa Birliyi ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (1996-cı il), Kioto Konvensiyası (2003-cü il), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (2003-cü il) və s.; ümumi bazara keçidin yolunda Azərbaycanın dünya, xüsusilə Avropa bazarına inteqrasiyası; iqtisadi birlik bağlantıları Avropa Birliyi, Müstəqil Dövlətlər Birliyi, Türk Dünyası Birliyi, həmçinin 2023-cü ildə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına sədrlik etməsi və s.; valyuta birliyi çərçivəsində Azərbaycan müstəqil bir dövlər kimi fəaliyyət göstərir, ölkədaxili əməliyyatlar manatla aparılır, lakin xarici ticarət əməliyyatları ABŞ dolları ilə həyata keçirilir. Bu tip inteqrasiya mərhələlərinin daha da dərinləşməsi prosesi əhalinin həyat keyfiyyəsinin yüksəlməsinə, istehsal sahələrinin modernləşdirilməsinə və regional bazarlarda rəqabət qabiliyyətliliyin artırılmasına səbəb olur.

Azərbaycan ixrac əməliyyatlarının 60,1%-ni Avropa, 36,7%-ni Asiya, 2,4%-ni Afrika, 0,5%-ni Okeaniya, 0,3%-ni Amerika ölkələri, idxal əməliyyatının isə 46,0%-ni Asiya, 45,9%-ni Avropa, 7,3%-ni Amerika, 0,6%-ni Okeaniya, 0,2%-ni Afrika ölkələri ilə aparır[38]. Lakin Azərbaycanın idxal və ixrac əməliyyatlarına diqqət yetirsək görərik ki, ölkə iqtisadiyyatının real sektorlarında qeyri-sabitlik hökm sürür. Çünki innovativ texnoloji tərəqqinin səviyyənin yüksəldilməsi prosesində sənayenin və aqrar sənayenin köklü şəkildə modernləşdirilməsi vəzifəsi öz həllini tapmamışdır. Məhz buna görə, Azərbaycanın 2021-ci ildə ixrac və idxal əməliyyatlarının strukturunu

---

[37] Родионова, И.А. Экономическая и социальная география мира [в 2 томах] / И.А.Родионова. – Москва: Юрайт, – Том 1, – 2015. – с. 192.

[38] Azərbaycanın xarici ticarəti (statistik məcmuə) / rəhbər T. Budaqov. – Bakı: Narıncı, – 2022. – 208 s.

təhlil etsək görərik ki, sənaye və aqrar sənaye sahələrində ciddi problemlər hələ də qalmaqdadır. Lakin ümumiləşdirilmiş şəkildə deyə bilərik ki, ixrac əməliyyatlarının 96,3%-i sənayenin, 3,7%-i aqrar sənayenin; idxal əməliyyatlarının isə 81,1%-i sənayenin, 18,9%i aqrar sənayenin payına düşmüşdür. İxrac olunan məhsulların çox hissəsinin, yəni 88,7%-i təkcə təbii xammal ehtiyatlarından (neft, qaz, bitum, müxtəlif minerallar və s.) ibarət olması və dünya bazarına çıxarılması ilə bağlı olmuşdur. Buna iqtisadi inkişafın zəif tərəfi kimi baxılmalıdır. Çünki dayanıqlı inkişafın bir amildən asılı olması, əks halda ölkədə "Holland sindromu"nun baş verməsinə səbəb ola bilər. Bu isə iqtisadiyyatın təbii sərvətlərdən asılılığına, istehsal sektorunda isə durğunluğa gətirib çıxarar. Buradan belə nəticə çıxarmaq olar ki, məhsulların dünya bazarına inteqrasiyası sahələrarasında qeyri-sabit mühit şəraitində həyata keçirilir. İdxal əməliyyatlarında isə bunun tam əksini müşahidə edirik.

İnteqrasiya prosesdə turizm sənayesi ən mühüm iqtisadi fəaliyyət növlərindən biri hesab edilir. Turizm sənayesinin inteqrasiya prosesində iştirakı ölkəyə gələn xarici turistlərin sayının artmasında özünü göstərir. Bu məqsədlə, Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı təhlil edilmiş və onların 2006-2021-ci illər üzrə inkişaf dinamikası araşdırılmışdır. Bu dinamika inkişafın qeyri-stabil olduğundan xəbər verir və 2019-cu ilə kimi davam etdiyi statistik rəqəmlərdən görünür. Kəskiz azalma 2019-2021-ci illərdə müşahidə edilmişdir. 2019-cu ildə ölkəyə gələn 2,8 mln turistin sayı 2021-ci ildə 461,7 minə qədər azalmışdır. Yəni, turizm məqsədi ilə ölkəmizə gələn turistlərin sayının azalma dimanikası müvafiq illər ərzində 6,2 dəfə olmuşdur[39]. Buna səbəb, COVİD-19 pandemiyası ilə əlaqədar ölkədə qadağaların və məhdudiyyətlərin tətbiq edilməsi olmuşdur.

İnteqrasiya münasibətlərində mühüm rol onyan amillərdən biri də xarici ticarət siyasəti və ticarət əlaqələrinin coğrafiyasıdır. Xarici ticarət siyasətinin tənzimlənməsini formalaşdırmaq və həyata keçirmək üçün Azərbaycan dünya iqtisadiyyatı sisteminə inteqrasiya edir. Bu məqsədlə, Azərbaycan 1992-ci ildə Beynəlxalq Valyuta

[39] Azərbaycada turizm (statistik məcmuə) / rəhbər T.Budaqov. – Bakı: Narıncı, – 2022. – 100 s.

Fonduna üzv (1944-cü ildə yaradılıb, 186 ölkə üzvüdür), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına üzv (1944-cü ildə yaradılıb, 186 ölkə üzvüdür)[40], Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına təsisçi üzv (1992-ci ildə yaradılıb, 12 ölkə üzvüdür), Avropa Yenidənqurma və İnkişaf Bankına üzv (1991-ci ildə yaradılıb, 69 ölkə üzvüdür), 1997-ci ildə Ümumdünya Ticarət Təşkilatında məsləhətçi (1995-ci ildə yaradılıb, 162 ölkə üzvüdür), 2012-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv (2012-ci ildə yaradılıb, 5 ölkə üzvüdür), 2016-cı ildə Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) üzv (1960-ci ildə yaradılıb, 13 ölkə daimi, 10 ölkə əməkdaşlıq edir)[41] və s. qismində daxil olmuşdur. Bunlarla yanaşı, Azərbaycan bir sıra ölkələrlə (Türkiyə, Rusiya, İtaliya, Almaniya, İsrail, Çin, Yunanıstan, İran, Qazaxıstan və s.) tərəfdaşlıq və əməkdaşlıq sazişləri imzalamışdır ki, bu da onun xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

2021-ci ilin statistik məlumatlarına görə Azərbaycan dünyanın 185 ölkəsi ilə müxtəlif sahələrdə ticarət əlaqələri saxlamış və illik xarici ticarət dövriyyəsi 33,9 mlrd ABŞ dolları təşkil etmişdir. Lakin Azərbaycan 2021-ci ildə xarici ticarət əlaqələrinin xeyli hissəsini, yəni 60,1%-ni yalnız beş ölkə ilə həyata keçirmişdir. Onun da 28,6%-i İtaliya, 13,8%-i Türkiyə, 8,8%-i Rusiya, 5,1%-i Çin, 3,8%-i isə Almaniyanın payına düşmüşdür[39]. Hazırda Azərbaycan ən yaxın qonşuları olan Türkiyə, Rusiya, Gürcüstan və İranla tərəfdaşlıq əlaqələrinin inkişafına böyük diqqət yetirir. Çünki inteqrasiyanın ilkin mərhələsi bilavasitə ölkələr arasında aparılan müsbət yönümlü qonşuluq siyasətindən başlayır. Bu mənada, qonşuluq münasibətləri və qarşılıqlı ticarət əməkdaşlığı ölkədə istehsalın və elmi-texniki potensialın artırılmasında yardımçı rolunu oynaya bilər.

---

[40] Beynəlxalq Valyuta Fonduna, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və onlarla bağlı təşkilatlara daxil olması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 18 avqust 1992-ci ildə qəbul edilmişdir. – Bakı: Qanun, 1992. – 3 s.

[41] Beynəlxalq təşkilatlarla əlaqələr [Elektron resurs] / Azərbaycan Respublikasının Energetika Nazirliyi. – Bakı: 2023. URL: https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler]

Dissertasiya işinin beşinci fəsli “**Azərbaycanın regional iqtisadi-coğrafi modelinin təşkili fonunda dayanıqlı istehsal sahələrinin coğrafi parametrləri və inkişaf perspektivləri**”nə həsr edilmişdir. Bu fəsildə istehsal sahələrində səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin iqtisadi-coğrafi sinergetik paralelləri və regional dayanıqlı inkişaf modelinin formalaşmasında dövlət proqramlarının stratateji nizamı iqtisadi-coğrafi əsaslarla təhlil edilmişdir.

Azərbaycanda istehsal sahələrinin səmərəli və kompleks yerləşdirilməsi mürəkkəb bir prosesdir. Onun iqtisadi baxımdan qiymətləndirilməsi isə ərazi prinsiplərinə əsaslanaraq, kompleks inkişafı və ixtisaslaşma istiqamətlərini müəyyən edir. Bu baxımdan, hər bir rayon üzrə istehsal sahələrinin səmərəliliyinin təyin edilməsi çox vacibdir.

D.L.Lopatnikovun Ərazi İnkişaf İndeksindən istifadə etməklə, istənilən rayonun inkişaf göstəricilərini hesablamaq mümkündür[42].

$$I = 0{,}1\sqrt{\frac{V^2}{N\,S}}$$

burada: V – istehsalın ümümi dəyəri, manat; N – əhalinin sayı, nəfər; S – sahə, km$^2$.

Ərazi İnkişaf İndeksi istehsal sahələrində iqtisadi səmərəliliyin müəyyən edilməsində də təbiq edilə bilər. Ərazi İnkişaf İndeksində istehsalın səmərəliliyi 0,0-10,0 arasında dəyişir ki, bu da hər bir rayonda inkişaf səviyyəsini müəyyən etməyə imkan verir. Ümumi meyarlar baxımından inkişaf göstəriciləri 0,0-1,0 çox zəif, 1,1-2,0 zəif, 2,1-4,0 nisbi, 4,1-6,0 orta, 6,1-8,0 yüksək, 8,1-10,0 çox yüksək kimi dəyərləndirilə bilər.

Azərbaycanın iqtisadi rayonları üçün istehsal sahələrinin səmərəliliyinin hesablanmasında Ərazi İnkişaf İndeksindən istifadə edilmişdir. Bu zaman, iqtisadi rayonların sahəsi (*S*), əhalisi (*N*) və istehsal sahələri (*V* ədədi kvadratsız) ümumi bir kəmiyyətə gətirilərək

---

[42] Лопатников, Д.Л., Эстеров, А.И. Возможности использования индекса хозяственного разития территории в сравнительном экономико-географическом анализе // – Москва: Известия Российской Академии Наук, Серия География, – 1997. – № 2, с. 85-88.

inkişafın səviyyə göstəriciləri təyin olunmuşdur. Nəticədə müəyyən edilmişdir ki, öz inkişaf səviyyəsinə görə çox yüksək iqtisadi rayon Bakı (9,6) hesab edilmişdir. Aparılan hesablamalarda Abşeron-Xızı (4,6) iqtisadi rayonu inkişafın orta göstəricisi ilə səciyyələnir. İstehsalın səmərəliliyinin nisbi inkişaf tempi ilə Naxçıvan (2,5), Şirvan-Salyan (2,2), Mil-Muğan (2,1), zəif inkişaf tempi ilə Gəncə-Daşkəsən (1,9), Qazax-Tovuz (1,8), Quba-Xaçmaz (1,78), Mərkəzi Aran (1,7), Dağlıq Şirvan (1,6), Şəki-Zaqatala (1,4), Lənkəran-Astara (1,4) və Qarabağ (1,2) iqtisadi rayonları seçilir. Ən geri qalan və çox zəif inkişaf etdirilən Şərqi Zəngəzur (0,6) iqtisadi rayonudur (cədvəl 3). Hazırda "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində bir sıra işlər həyata keçirilir ki, bu da yaxın gələcəkdə Şərqi Zəngəzur, eləcə də Qarabağ iqtisadi rayonlarının inkişaf göstəricilərinin yüksəlməsinə səbəb olacaqdır.

Cədvəl 3.

Ərazi İnkişaf İndeksinin köməkliyi ilə Azərbaycanın iqtisadi rayonlarının istehsal sahələrinin səmərəliliyinin hesablanması

| İqtisadi rayonlar | Sahəsi, min km$^2$ | Əhalinin sayı, min nəfər | İstehsalın dəyəri, min manat | Ərazi İnkişaf İndeksində istehsalın səmərəliliyi |
|---|---|---|---|---|
| Bakı | 2,14 | 2303,1 | 45554261,0 | 9,6 |
| Naxçıvan | 5,50 | 463,0 | 1644163,5 | 2,5 |
| Abşeron-Xızı | 3,73 | 579,9 | 4366139,2 | 4,6 |
| Dağlıq Şirvan | 6,13 | 326,8 | 496267,5 | 1,6 |
| Gəncə-Daşkəsən | 5,27 | 612,1 | 1189524,4 | 1,9 |
| Qarabağ | 8,99 | 907,9 | 1106082,8 | 1,2 |
| Qazax-Tovuz | 7,03 | 690,6 | 1577564,1 | 1,8 |
| Quba-Xaçmaz | 6,96 | 561,8 | 1245483,8 | 1,7 |
| Lənkəran-Astara | 6,07 | 959,4 | 1161732,5 | 1,4 |
| Mərkəzi Aran | 6,69 | 743,2 | 1549012,9 | 1,7 |
| Mil-Muğan | 5,67 | 526,4 | 1370818,6 | 2,1 |
| Şəki-Zaqatala | 8,84 | 632,9 | 1178088,1 | 1,4 |
| Şərqi Zəngəzur | 7,47 | 345,0 | 102337,1 | 0,6 |
| Şirvan-Salyan | 6,08 | 504,3 | 1503289,4 | 2,2 |
| Azərbaycan Res. | 86,57 | 10156,4 | 64044764,9 | 0,9 |

Qeyd: D.L.Lopatnikovun metodu əsasında Z.T.İmrani tərəfindən hesablanmışdır.

İstehsal sahələrinin inkişafı və təkmilləşdirilməsi, ölkənin hər bir iqtisadi rayonunun gələcək sosial-iqtisadi tərəqqisinin ən böyük mənbəyi hesab olunur[43]. Lakin Ərazi İnkişaf İndeksinin köməkliyi ilə istehsal sahələrinin səmərəliliyinin iqtisadi rayonlar üzrə hesablanması tam olaraq reallığı əks etdirə bilmir. Çünki hər bir iqtisadi rayonun daxilində öz inkişaf tempi ilə seçilən və ya olduqca ləng templə inkişaf etdirilər rayonlar var. Məhz bu baxımdan, rayonların hər biri üçün ayrılıqda istehsal sahələrinin səmərəliliyinin hesablanması olduqca vacibdir. Bu göstəricilər ərazi klasterinin qurulmasında, eləcə də LED Strategiyasının hazırlanmasında əsas vasitə kimi istifadə edilə bilər.

Yuxarıda qeyd edilən müsbət cəhətlərlə yanaşı, regional inkişafın müəyyənləşdirilməsində ilk addım kimi dünya ölkələri tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf strategiyalarına nəzər yetirmək lazımdır[44]. Məsələn, Norveç dayanıqlı inkişaf prinsiplərindən strateji planlaşdırılmada təməl kimi istifadə edərək regional inkişafı stimullaşdırır[45]. Fransada dayanıqlı inkişaf həm insanların, həm də planetin rifahını dəstəkləyən qlobal inkişafı təşviq edən prinsip[46], Polşada dayanıqlı inkişaf ekoloji cəhətdən təmiz sayılan istehsal sahələrinin "yaşıl iqtisadiyyat"ın sabit və davamlı iqtisadi inkişafına əsaslanan və əmək bazarında mövcud sosial resurslardan istifadə etməklə işsizliyin azaldılması[47], Rumıniyada dayanıqlı inkişaf iqtisadiyyat, cəmiyyət və ətraf mühit (ekologiya) arasında qarşılıqlı

---

[43] Самедзаде, З.А. Структура и эффективность общественного производства / З.А. Самедзаде. – Баку: Элм, – 1980. 210 с.

[44] Kogut-Jaworska, M. Identification of smart specialisations in Polish regions in the context of the EUs new financial perspective 2014–2020 // – Olsztyn: Oeconomia copernicana, – 2015. No 6(2), – p. 23-36.

[45] Clement, K. Sustainable regional development: learning from Nordic experience / K. Clement, M. Hansen, K. Bradley. – Stockholm: Nordregio, – 2003. – 132 p.

[46] Owens, T. Higher education in the sustainable development goals framework // – Warsaw: European journal of education, – 2017. No 52, – p. 414-420.

[47] Wysokińska, Z. Implementing the main circular economy principles within the concept of sustainable development in the global and European economy, with particular emphasis on central and Eastern Europe – the case of Poland and the region of Lodz // – Warsaw: Comparative economic research, – 2018. No 21(3), – p. 75-93

əlaqələrin məqbul, həyat qabiliyyətli, davamlı və ədalətli olması[48] kimi qəbul olunur. Buradan aydın olur ki, dayanıqlı regional inkişaf konsepsiyası dayanıqlı inkişaf prinsiplərinin regional inkişaf praktikasına inteqrasiyasını nəzərdə tutur. Azərbaycanda bu istiqamətdə müxtəlif dövlət proqramları və strateji yol xəritəsi işlənmiş, həyata keçirilmiş və keçirilməkdədir.

Strateji Yol Xəritəsində iqtisadi inkişafın zəif tərəfləri kimi ölkə iqtisadiyyatının dayaq sütununun neft-qaz gəlirlərindən asılı olması, ixracın əsasən təbii ehtiyatların çıxarılmasına yönəldilməsi, istehsalın idxaldan asılılığı, investisiya qoyuluşunda dövlətin payının yüksək olması, xarici investisiyaların əsasən hasilat sənayesinə yönəldilməsi və s. göstərilmişdir. Belə bir şəraitdə, iqtisadi artımın əsas hərəkətverici qüvvəsi istehsal sahələrində müşahidə edilən geriliyin aradan qaldırılmasına, investisiya risklərinin minimuma endirməsinə, xarici ticarətdən asılılığın azaldılmasına, eləcə də regional inkişafın qarşısında yeni çağırışların formalaşmasına yönəldilmişdir.

Azərbaycanda dayanıqlı əsaslarla sosial-iqtisadi inkişafın təminatçısı qismində çıxış edən zəruri amillərdən biri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə söykənən 2019-2023-cü illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı" və 2022-2026-cı illəri əhatə edən "Sosial-iqtisadi inkişaf Strategiyası"dır.

"Regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı" son illər uğurla həyata keçirilən dayanıqlı inkişafın mühüm tərkib hissəsi hesab olunur və 2004-cü ildən başlayaraq regional iqtisadi və sosial yönümlü layihələrin icrası ilə əlaqədar 3,3 dəfə ÜDM-in artmasına, 2,6 dəfə sənaye məhsulunun artmasına, 244,9 mlrd ABŞ dolları həcminə investisiya vəsaitinin ayrılmasına, son illər güzəştli kreditlərin 68,0%-nin aqrar sənayenin payına düşməsi, 1,5 mln daimi yeni iş yerinin açılmasına gətirib çıxarmışdır[49]. "Sosial-iqtisadi inkişaf Strategiyası"

---

[48] Gogonea, R. Tourism pressure at the regional level in the context of sustainable development in Romania / R. Gogonea, A. Baltalunga, A. Nedelcu [et al.] // – Basel: Sustainability. – 2017. No 9(5), 698, – p. 1-24. Doi: 10.3390/su9050698

[49] Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı // 29 yanvar 2019-cü ildə qəbul edilmişdir. – Bakı: [n. y.] – 2019. – 352 s.

isə milli fəaliyyət planlarının və dövlət proqramlarının əlaqələndirilməsi istiqamətində vacib tədbirlərin icrasını həyata keçirməkdə vasitəçi rolunu oynmışdır. Sosial-iqtisadi islahatlar insan kapitalını davamlı olaraq inkişafı etdirməklə yanaşı, maliyyə-kredit resurslarının səmərəli istifadəsini, ictimai-siyasi sabitliyin qorunub saxlanılmasını, istehsalın dayanıqlığının gücləndirilməsində investisiyaların rolunun əsaslandırılmasını təmin etməyə yönəldilmişdir[50]. Yəni, struktur-institusional islahatların aparılması yerli istehsal potensialının inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə təsiretmə mexanizminə malikdir.

Azərbaycanın xarici siyasəti və davamlı olaraq ölkələrarası strateji iqtisadi inteqrasiyaya meyl etməsi, qarşısına qoyduğu hədəflərin reallaşdırılması məqsədini daşıyır. Bu istiqamətdə həyata keçirilən quruculuq işlərinin məntiqi nəticəsi kimi 30 il erməni işğalı altında qalmış torpaqlarımız Vətən müharibəsi ilə başa çatdı və ərazi bütövlüyünə nail olundu. Yeni mərhələdə işğaldan azad olunmuş ərazilərin bərpası, köçkün əhalinin remiqrasiyası, yeni istehsal sahələrinin yaradılması, iş yerlərinin açılması, nəqliyyat-logistika infrastrukturun yaxşılaşdırılması və digər milli prioritetlərin icrası üçün "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış" Dövlət Proqramı qəbul edildi[51]. Güclü iqtisadiyyat ölkə ərazisinin bütün subyektlərinin inklüziv inkişafını tələb etdiyi üçün yaranan regional bərabərsizliyin aradan qaldırılması dövlət proqramında əksini tapmışdı. Bu istiqamətlə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında: sənaye zonalarının və aqroparkların fəaliyyəti (Ağdam Sənaye Parkı, Araz Vadisi İqtisadi Zonası Sənaye Parkı), turizm sənayesi üçün inkişaf konsepsiyalarının hazırlanması və icrası, müasir magistral yol infrastrukturunun qurulması (Füzuli, Zəngilan və Laçın hava limanları, Bərdə-Ağdam dəmir yolu, Horadiz-Ağbənd dəmir yolu, Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu, Bərdə-Ağdam avtomobil yolu və s.),

---

[50] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası // 22 iyul 2022-ci ildə qəbul edilmişdir. – Bakı: [n. y.] – 2022. – 110 s.
[51] Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I dövlət proqramı // 16 noyabr 2022-ci ildə qəbul edilmişdir. – Bakı: [n. y.], – 2022. – 33 s.

yaşayış məntəqələrinin (Şuşa şəhəri, Zəngilan rayonunda Ağalı kənd, Xocavənd rayonunda Hadrut qəsəbəsi və s.) elektrik enerjisi, qaz, su və istilik sistemləri ilə təminatı, rabitə (telefon, internet) xidmətinin təşkili, təhsil müəssisələrinin və onların filiallarının açılması və s. tədbirlər nəzərdə tutulmuşdur.

Qəbul edilmiş strateji yol xəritəsi və dövlət proqramları regionların kompleks inkişafını və onların tarixi köklərə əsaslanan ixtisaslaşma sahələrinin yeni texnologiyalar vasitəsilə bərpa edilməsinə, investisiya axınlarının stimullaşdırılmasına və digər məsələlərdə səmərəliliyin artırılmasına səbəb olmuşdur. Beləliklə, yaxın perspektivdə istehsalın ən qabaqcıl və mütərəqqi sahələrinin sürətlə inkişaf etdirilməsinə nail olmaq mümkündür.

## NƏTİCƏ

1) İlk dəfə olaraq dayanıqlı inkişafın sfera, hədəf üçbucağı, əlaqə konsepsiyası, nisbət, qeyri-bərabərlik və digər modellərini əks etdirən göstəricilər əsasında gələcək nəsillərin ehtiyaclarını məhdudlaşdırmadan indiki nəsllərin öz ehtiyaclarını ödəmələri üçün iqtisadi, sosial və ekoloji aspektləri əks etdirən “Dayanıqlı inkişaf modeli” verilib. Modeldə təbiəti dərk etmək və ondan səmərəli istifadə etməklə, insanların həyat səviyyəsinin və keyfiyyatinin yüksəldilməsi məqsədilə investisiya yönülmü innovativ texnlogiyaların tətbiqi, eləcə də yeni ideyaların və imkanların əldə edilməsi yolu ilə mümkün olduğu göstərilir. “Dayanıqlı inkişaf modeli” əsasında isə “Dayanıqlı inkişafın regional iqtisadi-coğrafi modeli” hazırlanmışdır. Modeldə obyektiv və subyektiv amillərin təhlili nəticəsində strateji hədəflər və iqtisadi artım üçün prioritet istiqamətlər əksini tapmışdır.

2) İstehsal sahəsinə investisiya qoyuluşunun təminatçısı və istehsalın yerləşdirilməsinin üstün cəhətlərinin müəyyən edilməsi, investisiya mühitinin əsaslandırılması və s. istiqamətlərdə tətbiq oluna bilən bir neçə model ümumiləşdirilərək ilk dəfə “İstehsal sahələrində investisiya mühitinin formalaşması modeli” verilib. Model dörd mərhələli inkişaf tsiklini əhatə edir və istehsalın əlverişli iqtisadi-coğrafi məkan daxilində ərazi təşkilini, məhsulların tələb-təklif münasibətlərini, dövlətin regional siyasəti daxilində hüquqi bazanın

tənzimlənməsini və konseptual investisiya mühitinin formalaşmasını şərtləndirir.

3) Sənaye istehsalı ölkə miqyasında iqtisadiyyatın və təsərrüfat sahələrinin aparıcı qüvvəsi hesab olunmaqla yanaşı, regional inkişafın təminatçısı qismində də çıxış edir. Azərbaycanda 2021-ci ildə fəaliyyət göstərən sənaye müəssisələri arasında emal sənayesinin payı (75,3%) yüksək olsa da, sənaye məhsullarının istehsalında olan göstəricilərdə bir qədər fərqlilik mövcuddur. Belə ki, mədənçıxarma sənayesinin ümumi istehsalda payı 65,6%, emal sənayesinin 28,8%, elektrik enerjisi və qaz istehsalının 4,8%, su təchizatının isə 0,8% olsa da, bu tendensiya iqtisadi rayonlar arasında qeyri-bərabər inkişafı aradan qaldıra bilməmişdir. Tərtib etdiyimiz anamorfoz xəritələr əsasında deyə bilərik ki, Bakı iqtisadi rayonu daim inkişaf tempi ilə seçilmiş, Abşeron-Xızı, Naxçıvan, Gəncə-Daşkəsən və Şirvan-Salyan iqtisadi rayonları isə son illər bir qədər inkişaf etdirilmişdir.

4) Aqrar sənaye dövlətin ərzaq məhsullarına olan tələbatını və regional sosial-iqtisadi təhlükəsizliyini müəyyən edir. Lakin son illər kənd təsərrüfatı məhsulları istehsalında aqrar sənayenin payı xeyli azalmış, 1995-ci ildə 32,1% olduğu halda 2021-ci ildə 9,7%-ə düşmüşdür. Aqrar sənayenin regional dayanıqlı inkişafının stimullaşdırılması ilə bağlı bu sahədə baş verə biləcək mümkün problemlər aşkar edilmişdir.

5) Turizm sənayesi daha gəlirli və intensiv inkişaf etdirilən sahə hesab olunsa da, hazırda bu sahənin əsas iqtisadi göstəriciləri olan gəlir və xərclər arasında ciddi fərq vardır. 2021-ci ildə turizm sənayesinin turagent və turoperatorların gəlir və xərclər arasında saldo 3,0 mln manat, mehmanxanalarda –21,7 mln manat olmuşdur. 2019-cu il ilə müqayisədə isə turizm sənayesinin inkişaf tendensiyası 2,2 dəfə geriləmişdir. Xarici turist səfərlərinin dinamikası və onların gəlmə yerləri sübut edir ki, regional baxımdan yalnız Bakı şəhəri turizm mərkəzi kimi imkişaf etdirilmişdir. Dayanıqlı turizm konsepsiyası baxımından bu göstərici mənfi hal kimi dəyərləndirilir.

6) İstehsal sahələrinin kəmiyyət göstəriciləri ümumiləşdirilərək klasretləşmə ($I_{x_1,x_2,x_3 \dots x_n} = I_{fak} - I_{min} \;/\; I_{mak} - I_{min}$) aparılmış, əldə edilən məlumatlar isə regional fərqlərin kəskin hal aldığını sübuta yetirmişdir. Klasterləşdirmədə Bakı iqtisadi rayonu ölkənin digər

regionlarından üstün mövqe tutduğu üçün ümumi istehsalın strukturunda rəqabət mühitini formalaşdırmaq mümkün olmamışdır. Bakı iqtisadi rayonu istisna edilərsə Abşeron-Xızı yüksək, Naxçıvan, Tovuz-Qazax, Gəncə-Daşkəsən, Şirvan-Salyan, Mərkəzi Aran zəif, digər iqtisadi rayonların isə çox zəif inkişaf etdiyini görmək mümkündür. Mənfi hal kimi orta inkişaf səviyyəsinin qeydə alınmamasıdır.

7) Azərbaycanda istehsal sahələrinin regional dayanıqlığı SWOT təhlili əsasında aparılmış, sənaye, aqrar sənaye və turizm sənayesi göstəricilərində daim artım tendensiyası müşahidə olunmuşdur. Lakin bu artım tendensiyası tam olaraq ya regional dayanıqlı inkişafı təmin etmir, ya da edə bilmir. Belə ki, 1995-2021-ci illər ərzində sənaye məhsulları istehsalının həcmi 31,2 dəfə, aqrar sənayedə 12,6 dəfə, turizm sənayesində isə 10,9 dəfə artım qeydə alınsa da, regional baxımdan sənayenin inkişafı Bakı və Abşeron-Xızı, aqrar sənayenin inkişafı Quba-Xaçmaz, Gəncə-Daşkəsən, Mil-Muğan, Mərkəzi Aran, Lənkəran-Astara, Naxçıvan, turizm sənayesinin inkişafı Bakı, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarında özünü daha qabarıq şəkildə göstərmişdir.

8) Azərbaycanın dayanıqlı iqtisadi inkişafının əsas vəzifələrindən biri də istehsalda innovativ artıma nail olmaq, innovasiyaların tətbiqini gücləndirmək, yeni qabaqcıl texnologiyaların istehsal prosesinə cəlb olunmasıdır. Lakin 2005-2021-ci illər ərzində innovasiyalara çəkilən xərclər mənfi trend xətti ilə əks olunmuşdur. 2005-ci ildə innovasiyalara çəkilən xərclər 53,2 mln manat olduğu halda, növbəti illərdə öz dəyişkən dinamikası ilə diqqəti cəlb etmiş və 2021-ci ildə bu göstərici 5,8 mln manata düşmüşdür. İnnovasiyalara çəkilən xərclərin azalması istehsalın dinamikliyinə və məhsulların keyfiyyətinə təsir etdiyindən yüksək-gəlirli və dayanıqlı inkişafın təminatında problemlər yaranmışdır.

9) Azərbaycanın xarici ticarət siyasəti iqtisadi artıma və onunla bağlı iqtisadi inkişafın davamlı olaraq yüksəldilməsinə, daha möhkəm əsaslarla iqtisadi inteqrasiyaya nail olmağa imkan vermişdir. 1990-2021-ci illər arasında Azərbaycanın xarici ticarət əlaqələrinin dinamikasına dünyada baş verən iqtisadi böhran, neftin qiymətinin kəskin düşməsi, manatın dollara qarşı devalivasiyası, karonavirus

pandemiyası və s. səbəblər təsir göstərmişdir. Hazırda Azərbaycan dünyanın 185 ölkəsi ilə ticarət əlaqələri həyata keçirir və illik ticarət dövriyyəsi 33,9 mlrd ABŞ dollarıdır. Lakin bu əlaqələrin 60,1%-i beş ölkə: İtaliya, Türkiyə, Rusiya, Çin və Almaniya ilə həyata keçirilir.

10) Azərbaycanda istehsal sahələrinə investisiya qoyuluşu dayanıqlı inkişafın təminatçısı qismində çıxış edir. Son illər (2015-2021-ci illər) iqtisadiyyatın sahələrinə ayrılan investisiyaların həcmi 861,2 mln manat artmışdır. Ən yüksək artım elm 14,9 dəfə (178,5 mln manat), maliyyə 10,2 dəfə (60,0 mln manat), tikinti 89,9% (1909,7 mln manat), nəqliyyat 29,9% (658 mln manat) və sosial təminat 21,5% (136,9 mln manat) sahələrində olmuşdur. Lakin dayanıqlı inkişafın təminatçısı olan istehsal sahələrində azalma müşahidə edilmişdir. Ayrılan investisiyaların həcmi sənayedə –11,7%, kənd təsərrüfatında –3,8%, turizm sənayesində isə –59,9% azalmışdır. Bu azalma istehsal sahələrinin inkişaf dinamikasına mənfi təsir edən amillər kimi qiymətləndirilir.

11) Azərbaycanın regional siyasətinə əsasən son illər Bakı iqtisadi rayonunda investisiya qoyuluşunun bir qədər azaldılmasına baxmayaraq, Bakı yenə də digər iqtisadi rayonlarla müqayisədə liderdir. Bunu investisiya qoyuluşunun bütün istiqamətlərində müşahidə etmək mümkündür. Bakı iqtisadi rayonunda adambaşına investisiya qoyuluşu ölkə üzrə ikinci yerdə olan və "Böyük qayıdış" proqramına əsasən daha çox vəsait ayrılan Şərqi Zəngəzurdan 1,8 dəfə, axırıncı yerdə olan Lənkəran-Astaradan isə 28,0 dəfə çoxdur. Bu istiqamətdə aparılan regional dövlət siyasətinə və qeyri-neft sektoruna ayrılan investisiya qoyuluşlarının həcminin artırılmasına baxmayaraq, Bakı iqtisadi rayonu əvvəlki illərdə olduğu kimi ölkə üzrə bütün sahələrin inkişafında fərqlənir.

### *Təkliflər*

1) Klaster yanaşması regionlarda iqtisadi artımın dinamikasını müəyyən etməyə imkan verir. Yaxın gələcəkdə regionlarda iqtisadi inkişafın gücünü və əhalinin sosial həyat tərzinin müəyyən edilməsində təklif etdiyimiz düsturun köməkliyi ilə hesablamaların aparılması mümkündür. Bu istiqamətdə ərazi istehsal klasterləri

şəbəkəsinin yaradılması və istehsal sahələrinin inkişafı müəssisələrarası rəqabət qabiliyyətliyinin artırılmasına və uzunmüddətli sosial-iqtisadi üstünlüklərin əldə olunmasına səbəb ola bilər. Effektiv klaster siyasətinin həyata keçirilməsi istehsal sahələrinin dayanıqlı konteksdə inkişafını təmin edər.

2) Dayanıqlı inkişaf sosial-iqtisadi fəaliyyətin məqsədyönlü özünütənzimləmə, təbii mühitin isə stabil vəziyyətdə olması deməkdir. Belə bir inkişaf regional iqtisadiyyatın təhlükəsizliyini təmin edən perspektiv model kimi qəbul edilə bilər. Modelin tətbiqi isə uzunmüddətli inkişaf strategiyasının işlənilməsinə köməklik göstərər.

3) Xəzərsahili ərazilərdə istehsalın sahə quruluşu ictimai əmək bölgüsünün, sahələrin diferensiallaşdırılmasının və ixtisaslaşdırılmasının səviyyəsini əks etdirir. Burada istehsalın həcmi həm regionun, həm də ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini, eləcə də əhalinin məşğulluq və yaşayış şəraitini xarakterizə etsə də, regional dayanıqlı siyasət baxımdan sosial-iqtisadi inkişafa mənfi təsir göstərir. Problemi aradan qaldırmaq üçün ölkənin digər regionlarında da strateji cəhətdən daha məqsədəuyğun hesab olunan yeni istehsal müəssisələrinin yaradılmasına ehtiyac vardır.

4) Xəzər dənizinin sahil ərazilərində müalicə əhəmiyyətli mineral və termal sular geniş yayılsa da (Abşeron yarımadası, Xaçmaz və Lənkəran rayonları ərazisində), onların potensial imkanlarından çox aşağı səviyyədə istifadə olunur. Kurort zonası olan bu yerlər təmiz havası, dəniz mənzərəsi, qumlu çimərlikləri ilə zəngin olduğu üçün bu ərazilərdə əhali daha sıx məskunlaşmışdır. Problemin həlli məqsədilə əhalinin daha çox məskunlaşdığı belə ərazilərdə turizm sənayesinə investisiyalar cəlb edilməli, kurort mərkəzlərində yenidənqurma işləri aparılmalı, mövcud baza əsasında yeni müalicə və istirahət mərkəzləri yaradılmalıdır.

**Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər**


1. İmrani, Z.T. Quba-Xaçmaz iqtisadi rayonu. – Bakı: Elm, – 2007. – 172 s.
2. İmrani, Z.T. Azərbaycan Respublikasında turizm-rekreasiya kompleksinin müasir vəziyyəti // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. – 2008. XII cild, – s. 379-384.
3. Imrani, Z.T. The role of the TRACECA project in use of Azerbaijan, s natural resources // – Baku: The “Caspian Sea” natural resources international. – 2008. No2, – pp. 100-105.
4. Imrani, Z.T. Research of natural disaster cases happening in Azerbaijan sector of the Caspian sea from economic-geographical point of view // The 1st. Inernational Conference on the Caspian Region Environmental Changes. – Mazandaran: – 2008. – pp. 6-12.
5. İmrani, Z.T. Xəzər dənizinin səviyyə tərəddüdünün Azərbaycanın sahilyanı ərazilərinə təsiri // – Bakı: Gənc alimlərin əsərləri. – 2009. №2, – s. 110-116.
6. İmrani, Z.T. Kənd təsərrüfatda maddi-texniki bazanın yaxşılaşdırılması və inkişafı yolları // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri. – 2009. II cild, – s. 347-352.
7. İmrani, Z.T. Azərbaycan Respublikasının müasir iqtisadi vəziyyəti və perspektiv imkanları // – Bakı: Türk Eli elmi-ictimai jurnal. – 2009. №4, – s. 54-58.
8. İmrani, Z.T. Azərbaycan Respublikasında sənaye sahələrinin potensial inkişafı // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətin əsərləri. – 2009. XIV cild, – s. 132-135.
9. İmrani, Z.T. Azərbaycan Respublikasının investisiya mühitinin təhlili // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətin əsərləri. – 2009. XIV cild, – s. 151-155. (həmmüəllif: K.Z.Zeynalova)
10. İmrani, Z.T. Azərbaycan Respublikasında baş verən dağıdıcı hidrometeoroloji hadisələr və onların iqtisadi-coğrafi qiymətləndirilməsi // – Bakı: Gənc alimlər əsərləri. – 2010. №3, – s. 90-97.
11. İmrani, Z.T. Azərbaycan Respublikasında kənd təsərrüfatı torpaqlarının ekoloji durumu // – Bakı: Azərbaycan Coğrafiya

Cəmiyyətinin BDU filialının əsərləri. – 2010. III cild, – s. 304-309.

12. İmrani, Z.T. Hazar denizinin Ekolojik Durumu ve Petrol Fakrörü // – İstanbul: Turan: ilim fikir ve medeniyet dergisi. – 2010. №11, – s. 91-94.
13. Imrani, Z.T. Socio-economic and environmental problems of the Caspian Sea on the Azerbaijani sector // – Baku: “Caspian Sea” natural resours international journal. – 2010. №4, – pp. 59-63.
14. Имрани, З.Т. Ущерб наносимый экологическому состоянию окружающей среды и человеческому здоровью атомными электростанциями // “Университетская Экология” Международная конференция. – Махачкала: – 2011. Вып. VI, – с. 258-261.
15. İmrani, Z.T. Qondarma Dağlıq Qarabağın iqtisadi xarakteristikası və Ermənilərin Azərbaycan torpaqlarında qeyri qanuni fəaliyyəti // – Baku: Gənc alimlər əsərləri. – 2013. №8, – s. 347-350.
16. İmrani, Z.T. Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri. – Bakı: Nafta-press, – 2014. – 232 s.
17. İmrani, Z.T. Azərbaycan Respublikasında sosial infrastruktur sahələrinin ərazi təşkili // – Bakı: Gənc alimlər əsərləri. – 2014. №10, – s. 62-66.
18. İmrani, Z.T. Azərbaycan Respublikasında aqrar-sənaye komplekslərinin dayanıqlı inkişafının iqtisadi-coğrafi perspektivləri // R.X.Piriyevin anadan olmasının 90 illik yubile-yinə həsr olunmuş elmi konfrans. – Bakı: – 2014. – s. 344-351.
19. Имрани, З.Т. Лечебно-оздоровительный туризм в Азербайджанской Республике // «Географические проб-лемы туризма, краеведения и экологии» Международно научно-практическая конференция. – Алмаата: – 2014. – 281-283. (соавтор: К.З.Зейналова)
20. Имрани, З.Т. Экономико-географическая характеристика инвестиционной политики Азербайджанской Республики // – Volgograd: Science and world. – 2015. Vol. 1, No2(18), – p. 113-116.

21. İmrani, Z.T. Azərbaycan Respublikasının investisiya siyasəti və onun perspektiv istiqamətləri // – Bakı: Coğrafiya və təbii resurslar. – 2015. №1, – s. 87-90.
22. Имрани, З.Т. Инвестиционное вложение в туристическую индустрию Азербайджанской Республики и его потенциальные возможности // – Ижевск: “Приволжский научный вестник” Научно-практический журнал. – 2015. №1-4, – с. 74-77.
23. Имрани, З.Т. Автомобильный транспорт как важное условие устойчивого развития Азербайджана // – Алматы: “Хабаршы” жараты-лыстану-география ғылымдары сериясы. – 2015. №2(44) – с. 6-10.
24. Имрани, З.Т. Способы привлечения иностранных инвестиций в экономику Азербайджана // – Алматы: “Хабаршы” жараты-лыстану-география ғылымдары сериясы. – 2015. №4(46) – с. 13-17.
25. Imrani, Z.T. Study of development of information and communication technology in Azerbaijan with marketing approach // – Bhopal: International journal of advanced computer research. – 2015. Vol. 5, – pp. 80-93. (həmmüəllif: R.N.Karimov)
26. Imrani, Z.T. Activity and problems of successful functioning of mobile operators in Azerbaijan // – United Kingdom: – 2015. Vol. 2, No. 6, – pp. 150-161. (həmmüəllif: R.N.Karimov)
27. Imrani, Z.T. Investments into economic branches of Azerbaijan Republic and their effectiveness // – United Kingdom: International Journal of liberal arts and social science. – 2015. Vol. 3, No. 7, – pp. 29-37.
28. İmrani, Z.T. Kür-Araz ovalığında daşqın və subasma hadisələrinin vurduğu iqtisadi ziyanların qiymətləndirilməsi // “Fövqəladə hallar və təhlükəsiz həyat” beynəlxalq elmi-praktik konfrans. – Bakı: – 2015. – s. 175-179.
29. İmrani, Z.T. Azərbaycanda istehsal sahələrinin dayanıqlı inkişafında klaster metodu // Coğrafiya: nəzəriyyə, praktika və innovasiya əsərlər toplusu. – Bakı: – 2015. – s. 235-240.
30. Имрани, З.Т. Социально-экономические аспекты концепции устойчивого развития в Азербайджанской Республике // –

Дагестан: Юг России: экология, развитие. – 2016. Том 11, №2.– с. 42-49. (соавтор: М.Р.Мусаева)

31. Imrani, Z.T. Energy complex of Republic of Azerbaijan as guarantor of sustainable development // – Bakı: Gənc alimlərin əsərləri. – 2016. №13, – s. 44-47.
32. İmrani, Z.T. Azərbaycan Respublikasında sənaye sahələrinin potensial imkanları və təsərrüfatın inkişafında rolu // – Bakı: Pedoqoji Universitetin Xəbərləri. – 2016. XIV 64, №1 – s. 52-56. (həmmüəllif: C.R.Abbasov)
33. Имрани, З.Т. Привлекательность Азер-байджанской Республики для устойчивого развития и инвестиций // – Volgograd: "Science and world" International scientific journal. – 2016. №12(40), – с. 92-95. (соавтор: Х.А.Бадалова)
34. İmrani, Z.T. Azərbaycan regionlarının dayanıqlı inkişafında turizm təsərrüfatının əmək ehtiyatlarının formalaşmasına təsiri // "Azərbaycan Respublika-sında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri" mövzusunda elmi konfrans. – Şəki: – 2016. – s. 434-443. (həmmüəllif: X.A.Bədəlova)
35. İmrani, Z.T. Azərbaycan Respublikasında yüngül sənayenin dayanıqlı inkişafı və perspektivləri // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri. – 2017. №1, – s. 159-168.
36. İmrani, Z.T. Azərbaycanın dağlıq ərazilərinin dayanıqlı inkişafında dövlət proqramlarının rolu // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. – 2017. XIX cild, – s. 265-271.
37. İmrani, Z.T. Azərbaycanın turizm təsərrüfatının inkişafinda iqlim amilinin rolu // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. – 2017. XX cild, – s. 505-510. (həmmüəlliflər: E.Z.Soltanov, M.S.Fətullayeva)
38. Imrani, Z.T. Ways of inflyuencing of sericulture to the development of turism industry // 8th Bacsa international conference Climate changes and chemicals – the new sericulture challenges. – Shaki: – 2-7 april, – 2017. – pp. 105-108. (coauthors: Y.R.Rahimov, Kh.A.Badalova)
39. İmrani, Z.T. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun davamlı inkişafında yeni ekoturizm obyektlərinin rolu // – Bakı: Coğrafiya

və təbii resurslar. – 2018. №2(8), – s. 75-80. (həmmüəllif: Y.R.Rəhimov)
40. İmrani, Z.T. Şərur inzibati rayonunun dayanıqlı inkişafında sosial-iqtisadi amillərin rolu // – Bakı: Azərbaycan İnşaat və Memarlıq. – 2018. №1(16), – s. 23-27.
41. İmrani, Z.T. Xızı inzibati rayonu ərazisi landşaftlarının həssaslıq dərəcəsinə görə qiymətləndirilməsi (Böyük Qafqazın Cənub-Şərq hissəsi) // – Baku: ANAS Transactions Earth Sciences. – 2018. №2, – s. 83-90. (həmmüəllif: S.N.Yusifova)
42. İmrani, Z.T. Türk dövlətlərinin turizm potensialı və ondan istifadə yolları // V Beynəlxalq Türk Dünyası araşdırmaları Simpoziumu. – Almatı: – 2018. Cild III, – s. 174-178. (həmmüəllif: E.E. Qasımova)
43. İmrani, Z.T. Azərbaycanın Şimal bölgəsinin turizm-rekreasiya ehtiyatlarının potensial imkanları və rayonlaşdırılması // “Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılması perspektivləri” respublika elmi-praktiki konfransı. – Bakı: – 2018. – s. 8-13.
44. Imrani, Z.T. Sustainable development and human geography problems of the regions in the Azerbaijan Republic // – Sofia: Problems of geography. Bulgarian academy of sciences. – 2019. №2, – pp. 3-21. (couathors: Z.N.Eminov, H.M.Tahirova, M.R.Musayeva)
45. İmrani, Z.T. Turizmin regional aspektləri və onun inkişafında sosial-iqtisadi amillərin rolu // “Davamlı inkişafın təmin olunmasında turizmin rolu” beynəlxalq elmi konfrans. – Bakı: – 29-30 may, – 2019. – s. 288-296.
46. İmrani, Z.T. Müstəqil türk dövlətləri və milli qurumlarinin xarici iqtisadi əlaqələri // “Coğrafiyanın müasir problemləri” respublika elmi konfransı. – Sumqayıt: – 24-25 oktyabr, – 2019. – s. 206-210.
47. İmrani, Z.T. Dağlıq rayonların sosial-iqtisadi inkişafında turizm-rekreasiyası ehtiyyatlarının rolu (Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu timsalında) // “Dağlar: mədəniyyətlər, landşaftlar və biomüxtəliflik” beynəlxalq konfransı. – Bakı: – 10-12 may, – 2019. – s. 388-393. (həmmüəllif: X.A.Bədəlova)

48. İmrani, Z.T. The role of tourism in socioeconomic development of mountain rural areas of Azerbaijan (on the example of Guba and Gusar districts) // – Bakı: Coğrafiya və təbii resurslar. – 2020. №1(11), – s. 64-69. (həmmüəllif: N.R.Jafarova)
49. İmrani, Z.T. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhalinin məşğulluq probleminin həllində turizm təsərrüfatinin rolu // – Bakı: Pedoqoji Universitetin Xəbərləri. – 2020. Cild 68, №2, – s. 113-122. (həmmüəllif: A.Ç.İsmayılova)
50. Imrani, Z.T. Methodical basis of tourism-recreationation resources and their regionalisation // Регіон – 2020: суспільно-географічні аспекти: матеріали міжнародної науково-практичної конференції. – Харків: – 2-3 April, – 2020. – pp. 10-13.
51. Imrani, Z.T. The geopolitical position of the Turkic world and the geography of transport and economic relationships // – Almaty: Bulletin of national academy of sciences of the republic of Kazakhstan. – 2021. Vol.1, №389, – pp. 104-110. (couathors: M.R.Musayeva, P.Sh.Orujov)
52. Imrani, Z.T. Sustainable development of the tourism industry in Azerbaijan // – Cuba: Revista Universidad y Sociedad. – 2021. №13(1), – pp. 43-50. (couathors: G.R.Aghakishiyeva) (Web of Science)
53. Imrani, Z.T. Analysis of wind-wave characteristics of the Caspian sea based on reanalysis data // – Moscow: Russian Meteorology and Hydrology. – 2022. Vol. 47, No. 6, – pp. 479-484. (couathors: S.H.Safarov, E.S.Safarov) (Web of Science)
54. Imrani, Z.T. Methodological basis of zoning of tourism-recreation reserves and tourism potential of Gusar region of the Republic of Azerbaijan // – Dnipro: Journal of Geology, Geography and Geoecology. – 2021. №30(2), – pp. 379-388. (couathor: G.V.Valiyeva) (Web of Science)
55. Имрани, З.Т. Роль туроператоров и турагентов в развитии туристического сектора в Азербайджане // – Ижевск: Вестник Удмуртского Университета. – 2021. Том 31, Вып. 2, – с. 209-215. (соавторы: Э.Д.Керимова, К.З.Зейналова)

56. Imrani, Z.T. Designing industrial zones and ecological problems in the guba district of the Republic of Azerbaijan // – Nizhnevartovsk: Bulletin of Science and Practice. – 2021. Vol.7, №8, – pp. 83-90.
57. Imrani, Z.T. The main directions of sustainable socio-economic development of the Caspian littoral areas of the Republic of Azerbaijan and the existing environmental problems // – Dnipro: Journal of Geology, Geography and Geoecology. – 2021. №30(6), – pp. 652-665. (couathors: Sh.I.Mammadova, N.N.Hajiyeva, O.Y.Vysotskyi) (Web of Science)
58. Imrani, Z.T. The role of natural resource potential in sustainable socio-economic development of mountainous regions of the Republic of Azerbaijan // India: International Journal of Development Research. – 2021. Vol. 11, No 8, – pp. 49848-49854.
59. İmrani, Z.T. Azərbaycan Respublikasında sənaye zonalarının və sənaye parklarının yaradılmasının sosial-iqtisadi və ekoloji aspektləri // The XVII international scientific symposium "Karabakh: way to victory". – Gothenburg: – 28 August, – 2021. – pp. 356-360.
60. Imrani, Z.T. Comparison of the Azerbaijani education system with the us education system (XX-XXI centuries (1960-2015) // The XVI International Scientific Symposium "World Science: problems and innovations". – Michigan: – 26 July, – 2021. – pp. 169-182. (couathor: S.Sh.Jafarov)
61. İmrani, Z.T. Qarabağın turizm-rekreasiya ehtiyatları və onların inkişaf etdirilməsində idman turizminin rolu // "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" V Beynəlxalq elmi-praktik konfrans. – Bakı: – 5 noyabr, – 2021. – s. 17-19. (həmmüəllif: G.Ə.Hidayətli)
62. İmrani, Z.T. Azərbaycanda turizm xidməti bazarında mövcud problemlər və onların aradan qaldırılması yolları // – Bakı: Coğrafiya və təbii resurslar. – 2022. №1(16), – s. 95-101. (həmmüəlliflər: G.Ç.Bayramova, İ.Y.Məmmədova)
63. Imrani, Z.T. Opportunities and prospects for the development of speleotourism in Azerbaijan // – Dnipro: Journal of Geology,

Geography and Geoecology. – 2022. №31(2), – pp. 293-301. (couathors: K.Z.Zeynalova, G.Sh.Mammadova, O.Y.Vysotskyi) (Web of Science)

64. Imrani, Z.T. Study of the earthquakes impact on industrial facilities in the Republic of Azerbaijan using GIS Technologies // – Махачкала: Известия Дагестанского государственного педагогического университета серия «Естественные и точные науки». – 2022. Том 16, №3, – p. 77-86. (couathor: A.E.Babakhanov)
65. Imrani, Z.T. A study of caves and their speleotourism potential in Azerbaijan // – Baku: ANAS Transactions, Earth Sciences. – 2023. №1, – pp. 100 ‑ 110. (couathors: K.Z.Zeynalova, G.A. Hidayatli) (Scopus)
66. Imrani, Z.T. The current state of foreign trade relations of the Republic of Azerbaijan // 7th International EMI Entrepreneurship & Social Sciences Congress, – Tashkent: – 20-22 june, – 2022, – pp. 52-58. (coauthors: Z.N.Eminov, S.Sh.Jafarov)
67. Imrani, Z.T. Regionalization of resort-recreational zones of Azerbaijan and possibilities of using them studios case: Gusar tourism-recreational zone // – Cuba: Revista Universidad y Sociedad. – 2023. No 15(3), – pp. 554-561. (couathor: G.V.Veliyeva) (Web of Science/ Scopus)
68. Imrani, Z.T. Regionalization of resort-recreational zones of Azerbaijan and possibilities of using them studios case: Gusar tourism-recreational zone // – Pushkino: Services in Russia and abroad. – 2023. Vol. 17, No 1(103) – pp. 147-155. (couathor: G.F.Asgarli)
69. Имрани, З.Т. Конструктивные основы устойчивого экономико-географического развития инвестиционной среды и производственных сфер Азербайджана // – Тула: Известия ТулГУ. Науки о Земле. – 2023. Вып. 2, – с. 484-500. (Web of Science)
70. Imrani, Z.T. Ethnos with turkish ancestry in the toponymic background of the territory of Azerbaijan // – Florida: Revista de Gestão Social e Ambiental. – 2023. Vol.1, №7, – pp. 1-10. (couathors: N.G.Babayev, A.R.Zakirova) (Scopus)

71. Imrani, Z.T. Economic-Geographical Model of Sustainable Development in Manufacturing and Education // – Zagreb: International journal of innovation and economic development. – 2023. Vol.9, №1, – pp. 47-54. (couathor: S.Sh.Jafarov) (Scopus)
72. Imrani, Z.T. Strategic objectives of sustainable development model in production and education // – Florida: Journal of law and sustainable development. – 2023. Vol. 11, No 7, – pp. 1-14. (couathor: S.Sh.Jafarov) (Scopus)
73. Имрани, З.Т. Определение туристско-рекреационного потенциала методом ландшафтного планирования (на примере Губинского района) // – Тула: Известия ТулГУ. Науки о Земле. – 2023. Вып. 4, – с. 158-170. (соавтор: С.Т.Кязимова) (Web of Science)
74. Imrani, Z.T. Main directions of sustainable development in education // – Florida: Journal of law and sustainable development. – 2023. Vol.11, №7, – p. 1-33. (couathors: S.Sh.Jafarov, Y.I.Aliyev) (Scopus)
75. İmrani, Z.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoturizm potensialı və onldan istifadə yolları // – Bakı: Coğrafiya və təbii resurslar. – 2023. №2(20), – s. 72-77.
76. Imrani, Z.T. The importance of the internatıonal transport corrıdors // Международная научная конференция «Science. Research. Practice (Наука. Исследования. Практика)», – Томск, – 2023, – с. 14-17. (coauthor: P.Sh.Orujov)
77. Imrani, Z.T. Regional economic-geographic model of sustainable development // «Современная Евразия: общественно-географический анализ» международная научная конференция, – Улан-Удэ: – 10-19 сентябр, – 2023, – с. 86-91.
78. Imrani, Z.T. Study of industrial production in Azerbaijan based on anamorphosis maps // 6th Intercontinental Geoinformation Symposium. – Baku: – 2023, – pp. 36-40.
79. Imrani, Z.T. Prıorıty development areas of nature tourısm resources in Shakı-Zagatala economıc and geographıc regıon // – Oradea: Geojournal of Tourism and Geosites. – 2024. Vol.54, №2, – pp. 921-926. (couathors: A.I.Huseynzade, B.A.Bilalov) (Scopus)

80. Imrani, Z.T. Possibilities of applying the cluster approach in the study of the stability of the regional territorial organisation of production areas // – Dnipro: Journal of Geology, Geography and Geoecology. – 2024. Vol.54, №33(1), – pp. 54-62. (couathors: Z.N.Eminov, E.E.Gasimova, O.Y.Vysotskyi) (Web of Science)
81. Imrani, Z.T. Eco-geographıcal aspects of ınnovatıve modern approach to productıon areas // XII Международной научно-практической конференции «Актуальные проблемы естественных наук». – Петропавловск: – 2024. – р. 126-131.



Dissertasiyanın müdafiəsi 23 may 2025-ci il tarixində saat $11^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BED 2.51 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., akademik Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti. E-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası www.geography.bsu.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2025

Kağızın formatı: A5

Həcm: 76911

Tiraj: 100